# Bu dəfə daha çox məhkumun adı əfv siyahısına düşəcək



**May ayında əfv sərəncamının imzalanması gözlənilir. Bu, "Heydər Əliyev İli" çərçivəsində görüləcək tədbirlər siyahısındadır.**

Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri, hüquq müdafiəçisi Səadət Bənənyarlı deyib ki, indiyədək imzalanan əfv sərəncamlarından fərqli olaraq bu dəfə daha çox məhkumun adı siyahıya düşəcək.

*Prezident İlham Əliyev 2022-ci ilin mayın 27-də "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalamışdı.*

**Aygün**



## Kahramanmaraşda 4,3 bal gücündə zəlzələ olub

**Türkiyənin Kahramanmaraş şəhərinin Göksun rayonunda zəlzələ olub.**

Trend xəbər verir ki, bu barədə Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyi (AFAD) məlumat yayıb.

Məlumata görə, saat 18.31-də baş verən zəlzələ 4,3 bal gücündə olub.

Zəlzələnin dərinliyinin 7,36 kilometr olduğu açıqlanıb.


№ 71 (5832) 2023-cü il

Qiymət 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 aprel 2023-cü il (cümə axşamı)




# Şuşaya qar yağıb, Xocavəndə və Füzuliyə dolu düşüb

**Faktiki hava şəraiti açıqlanıb.** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, Şuşa şəhərinə qar, Şəmkir, Göygöl, Naftalan, Yardımlı, Gədəbəy rayonlarında şimşək çaxıb, arabir yağış yağıb.

Şuşa şəhərinə, Xocavənd rayonunun Zoğalbulaq, Azıx, Tuğ kəndlərinə, Füzuli rayonunun Qacar və Divanalılar kəndlərinə diametri 10-12 mm olan dolu düşüb.



## "Bakı Metropoliteni" QSC-nin Müşahidə Şurasının sədri dəyişib

**Prezident İlham Əliyev "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" sərəncam imzalayıb.**

Sərəncama əsasən, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri dəyişib.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev olub.

Bundan əvvəl "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri iqtisadiyyat nazirinin müavini Elnur Əliyev olub.

## AK Partiya: Ərdoğanın səhhəti yaxşıdır



**AK Partiyanın Qrup sədr müavini Bülent Turan qatıldığı canlı yayımda narahatlıq keçirən prezident Rəcəb Tayyib Ərdoğanın səhhəti ilə bağlı fövqəladə vəziyyətin olmadığını bildirib.**

APA Türkiyə KİV-nə istinadən xəbər verir ki, o, "gündə 5 proqram, xüsusi yığıncaqlar və müsahibələr keçirilir. Dünənki fövqəladə proses əslində proqramları yenidən nəzərdən keçirmək fürsəti verə bilər" deyib.

Dövlət başçısının səhhəti ilə bağlı AK Partiya sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş da açıqlama verib.

Millət vəkili qeyd edib ki, gərgin iş rejiminə görə prezidentin mədəsində narahatlıq yaranıb. Hazırda vəziyyəti tam qaydasındadır.

# Generallar gəldi-gedərdi

## Azərbaycan Qarabağda elə reallıqlar yaradıb ki, komandanı dəyişməklə nəticə dəyişməyəcək



**Rusiya Silahlı Qüvvələrinin Quru Qoşunları Baş Komandanının müavini, general-polkovnik Aleksandr Lentsov Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandiri təyin edilib.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib. O, bu postda general Andrey Volkovu əvəzləyib. Lentsov 2020-ci ilə qədər isə Quru Qoşunlarının Baş komandanının müavini olub.

Çeçenistandakı hər iki müharibədə, Əfqanıstanda, 2008-ci ildə Gürcüstan, 2014-2015-ci illərdə isə Ukraynadakı hərbi əməliyyatlarda iştirak edib.

(səh.2)

# "Məktəblinin dostu" hər məktəbdə olmalıdır

## Bu layihənin tətbiq olunduğu təhsil ocaqlarında şagirdlər arasında siqaret çəkmə halları 80 faizədək azalıb



**"Azərbaycanda həm xüsusi mühafizə olunan, həm polis tərəfindən məruzə edilən, həm də bütün məktəblərdə ən azı həyəcan düyməsi yerləşdirilib".**

Bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. Onun sözlərinə görə, bu istiqamətdə müvafiq təlimlər də keçirilir: "Məktəblərin təhlükəsizliyi baxımından ən uğurlu layihəmiz "Məktəblinin dostu"dur. Artıq yüzdən çox məktəbdə bu layihə icra olunur. Bundan əvvəl məktəbdə zəhərlənmə halı baş verdikdə ilk müdaxiləni məktəb rəhbərliyi ilə yanaşı, "Məktəblinin dostu" etmişdi.

(səh.5)

## Tərtərdə minaya düşən şəxsin vəziyyəti stabildir




**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) Tərtər rayonunda baş verən mina hadisəsi ilə bağlı əlavə məlumat yayıb.**

ANAMA-dan "Şərq"ə daxil olan məlumatda deyilir ki, aprelin 26-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində minalardan təmizlənməmiş ərazidə mina hadisəsi baş verib: "Piyada əleyhinə minanın partlayışı nəticəsində minatəmizləmə fəaliyyətinə cəlb olunan Beynəlxalq Avrasiya Mətbuat Fondu qeyri-hökumət təşkilatının sürücüsü, 1990-cı il təvəllüdlü Babaşov Xəzər Tarıyel oğlu xəsarət alıb. Xəsarət alan şəxsin sağ ayağı topuqdan yuxarı nahiyədən travmatik amputasiya edilib, vəziyyəti stabil qiymətləndirilir. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursat təhlükəsi davam etməkdədir. ANAMA bir daha vətəndaşları təhlükəli ərazilərdə diqqətli olmağa çağırır.

# 3 nəfər vəfat edib

## Son sutkada 71 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 71 yeni yoluxma faktı qeydə alınıb, 73 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 434 vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 246, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 138, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 34, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 16 nəfərdir.

# Laçında insan sümükləri tapıldı



**Laçında insan sümükləri tapılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, aprelin 25-də Laçın rayonunun işğaldan azad edilmiş Bülüldüz kəndi ərazisində mühəndis-istehkam işləri aparılarkən insana məxsus olması ehtimal edilən bir ədəd kəllə sümüyü və digər sümük fraqmentlərinin aşkar edilməsi faktı ilə bağlı Qubadlı hərbi prokurorluğunda araşdırma aparılır.



# "Ruslar ərazimizdən tez çıxmalıdır"

Pənah Hüseyn: "Bu zaman regionumuzdakı gərginlik aradan qalxacaq"

(səh.4)



# "Xaricdən Azərbaycana qarşı təzyiqlərin heç bir mənası olmayacaq"

Fuad Abbasov: "Ekofəalların Qarabağın ermənilər yaşayan ərazisinə nəzarət edilməsində çox böyük rolu var, etirazların davam etdirilməsi lazımdır"

(səh.3)





# Qətiyyətin təntənəsi

## Laçın-Xankəndi yolunda bayrağımız dalğalanır

**Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində əldə olunan növbəti uğur Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin yaradılması oldu. Bu addım Azərbaycanın Vətən müharibəsindən sonra əldə etdiyi növbəti tarixi nailiyyətdir.**

Göründüyü kimi, 2020-ci ilin sentyabrından başlayaraq Azərbaycan və onun qətiyyətli lideri İlham Əliyev qarşıya qoyulan hədəflərə doğru addım-addım irəliləyir. Xüsusi qeyd olunmalıdır ki, ermənilərin və bəzi qərəzli dairələrin iddia etdiyi kimi Azərbaycanın bu yolda Dövlət Sərhəd Xidmətinin (DSX) nəzarət-buraxılış məntəqəsini qoyması Qarabağda yaşayan mülki ermənilərin həmin yoldan istifadəsini qətiyyən məhdudlaşdırmır. Əksinə, nəzarət-buraxılış məntəqəsi qanuni və tənzimlənən gediş-gəliş üçün imkan yaradır. Ekofəallar etiraza başlayanda da erməni təbliğatçıları iddia edirdilər ki, guya, Xankəndidə "humanitar fəlakət" yaşanır. İndi də erməni tərəfi və onun havadarları eyni təbliğatı aparırlar. Lakin hər kəs dərk etməlidir ki, separatçılara, revanşistlərə, qanunsuz hərbi birləşmələrə və terrorçulara Azərbaycan ərazilərində yer yoxdur. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan bayrağını və suverenliyini qəbul edən ermənilər burada qalıb yaşaya bilər. Separatizm meylləri olan şəxslər üçün isə qapı açıqdır: "Bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar. Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz".

Xatırladaq ki, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatın imzalanması ərəfəsində Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan danışıqlar zamanı Ermənistan dəhlizin 20 km enində və Ermənistanın nəzarətində olmasında təkid edirdi. Lakin Prezident İlham Əliyevin sərt və barışmaz mövqeyi dəhlizin 5 km müəyyən edilməsi, 3 il müddətində yeni yolun istifadəyə verilməsi və Laçın rayonunun mərkəzinin Azərbaycana qaytarılması ilə nəticələndi. Sözügedən müddəalar üçtərəfli bəyanatda əksini tapdı və yeni yol ilyarıma istifadəyə verildi. Ermənistanın 7 km yolu süni şəkildə ləngitməsi, 2022-ci ilin avqustunda bununla bağlı təxribatlar törətməsi buna mane ola bilmədi. Laçının mərkəzi 2022-ci ilin sentyabrında heç bir qurban olmadan Azərbaycanın tam nəzarətinə keçdi. Prezident İlham Əliyev sentyabrın 21-də Laçına səfər etdi və şəhərin mərkəzində Azərbaycan bayrağını ucaltdı. Dövlət başçısı bunu tarixi hadisə adlandırdı: "Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaq".

> Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini hamıya bir daha təsdiqlədi

Əfsuslar ki, sonrakı dönəmdə Ermənistanın təxribatçı hərəkətlərinin şahidi olduq. Müharibədə aldığı sarsıdıcı zərbələrə baxmayaraq, sonrakı mərhələdə ermənilər Laçın yolu ilə Qarabağa silah-sursat daşınmasını, Qarabağda hərbi kontingent formalaşdırmağa cəhd göstərməsini davam etdirdilər. Eyni zamanda Azərbaycanın Qarabağda təbii sərvətlərinin talanması və Laçın yolu ilə Ermənistana daşınması halları baş verirdi. Xüsusilə, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqları qanunsuz istismar olunurdu. Qarabağdakı Rusiya sülhməramlılarının gözü qarşısında Azərbaycanın təbii sərvəti talanaraq Ermənistana, oradan da xaricə daşınırdı. Azərbaycan dövlətinin Rusiya sülhməramlıları ilə danışıqlar nəticəsində adıçəkilən yataqlara baxış keçirilməsi və monitorinq aparılması razılaşdırılsa da, Moskvanın xüsusi missiya ilə Qarabağa göndərdiyi Ruben Vardanyanın təşkilatçılığı ilə separatçı tör-töküntülərinin buna imkan verməməsi əks addımların atılmasını zəruri edirdi. Azərbaycanın sərvətlərinin talanmasına, ekologiyasına ağır zərbələr vurulmasına imkan verməmək üçün ekoloji fəallar 2022-ci il dekabrın 12-dən Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində fasiləsiz etiraz aksiyasına başladılar. Bununla da ermənilərin qanunsuz əməllərinin qarşısına sədd çəkdilər. Tezliklə Laçın da daxil olmaqla, digər azad olunmuş ərazilərə mülki insanlarımızın köçməsini nəzərə alsaq, bu yoldan separatçıların və digər silahlıların sərbəst istifadəsi böyük təhlükələrə səbəb ola bilərdi. Çünki ermənilərin Laçın yolundan sui-istifadə etməsi halında mülki insanlarımızın həyatı üçün hər zaman təhlükələr yaranması qaçılmaz idi. Sözsüz ki, vəziyyətin bu formada davam etməsi Azərbaycan xalqı və dövləti üçün də qəbuledilməz hesab olunurdu. Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini hamıya bir daha təsdiqlədi. Ekofəalların bu addımını dəstəkləməli olan beynəlxalq təşkilatlar, dövlətlər 30 illik işğal dövründə olduğu kimi, yenə də ədalətsiz mövqe ortaya qoydular. Azərbaycana qarşı kampaniyalar təşkil edildiyi, təzyiqlər göstərilməsinə cəhdlər oldu, xarici mediada Azərbaycana qarşı qara piar aparıldı ki, guya, Azərbaycan Qarabağda etnik təmizləmə siyasəti həyata keçirir. Əlbəttə, heç bir təzyiq Prezident İlham Əliyevi öz qətiyyətli mövqeyindən geri döndərə bilmədi. Azərbaycan öz haqqını tələb etməyə davam etdi, Qarabağ ermənilərinə reinteqrasiya və mövcud problemlərin həlli ilə bağlı müraciət edərək, onların nümayəndələrini Bakıya dəvət etdi. Lakin Azərbaycanın bütün çağırışları cavabsız qaldı. Əvəzində ermənilər təxribatlarını, ara yollarla Ermənistandan Qarabağa silah və hərbi texnika daşınmasını davam etdirdilər. Müdafiə Nazirliyi bu ilin mart ayında dəfələrlə məlumatlar yayaraq, Xankəndi-Xəlfəli-Turşsu və Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni tikinti və təkmilləşdirmə işlərinin intensivləşdiyini, bunun Azərbaycan Ordusunun texniki müşahidə vasitələri ilə qeydə alındığını bildirirdi. Məlumatlarda qeyd olunurdu ki, bu yollardan, həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin döyüş mövqelərinin təminat və təchizatını həyata keçirmək üçün istifadə olunur. Yaranmış vəziyyət nəzərə alınaraq, Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri nəzarət tədbirləri həyata keçirildi. Bəzi yüksəkliklər götürüldü, yola və əraziyə nəzarət təmin olundu. Azərbaycan Ordusunun uğurlu əməliyyatı nəticəsində Şuşa rayonunun Allahqulular və Zamanpəyəsi kəndləri də nəzarətimizə keçdi. Lakin ermənilər çirkin məqsədlərinə çatmaq üçün yenə də ərazidə gizli, alternativ yollar axtarmağa başladılar. Belə olan halda Azərbaycan qətiyyətli addım ataraq aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı.

Şübhəsiz, bu addım Azərbaycan Prezidentinin ardıcıl şəkildə, qətiyyətlə həyata keçirdiyi siyasətin nəticəsi və növbəti təntənəsidir.

**İsmayıl**




## Bu gün gəlirlər

### İrəvanda tarix yazan türkiyəli idmançılar Bakıda qonaq olacaq

**Ermənistanın paytaxtı İrəvandakı ağırlıqqaldırma üzrə Avropa çempionatında qızıl medal qazanmış Nuray Güngör, Cansu Bektaş, Yusuf Fehmi Genc və gümüş mükafatçı Qamze Altun bu gün Bakıya gələcək.**

Türkiyə Ağırlıqqaldırma Federasiyasının prezidenti Talat Ünlü də Azərbaycana səfər edəcək.

*Səfər zamanı onların paytaxtda bir sıra görüşlərdə və tədbirlərdə iştirakları nəzərdə tutulub.*

## Hindistanın yeni səfiri Azərbaycana gəlib



**Hindistanın yeni təyin olunmuş səfiri Şri M. Şridharan Azərbaycana gəlib.**

APA xəbər verir ki, bu barədə Hindistanın Azərbaycandakı səfirliyinin "Facebook" hesabında bildirilib.

*Qeyd edək ki, o, bu vəzifədə Bavitlunq Vanlalvavnanı əvəz edib.*

## "Səmalarımız təhlükəsiz olacaq"

### Akar: Pilotlarımız Türk Silahlı Qüvvələrinin qürur mənbəyidir

**Səmalarda güvənin təcəssümü olan pilotlarımız istedadları, hazırlığı, nizam-intizamı və üstün məsuliyyət hissi ilə Türk Silahlı Qüvvələrinin və millətimizin qürur mənbəyidir.**



Milli.Az-ın TurkicWorld-a istinadən məlumatına görə, bu sözləri Türkiyə Milli Müdafiə naziri Hulusi Akar, "Dünya Pilotlar Günü" münasibəti ilə etdiyi təbrikdə bildirib.

Başda Türkiyə Silahlı Qüvvələrində olan qəhrəman və fədakar pilotlarımız olmaqla bütün pilotlarımızın "Dünya Pilotlar Günü" münasibəti ilə ürəkdən təbrik edirəm.

"Qəhrəman pilotlarımız səmalarımızı qorumaqdan terrorla mübarizə çərçivəsində həyata keçirilən əməliyyatlara, dənizlərimizdə hüquq və mənafelərimizin qətiyyətlə qorunmasından həm ölkədaxili, həm də hərbi əməliyyatların icrasına qədər bütün vəzifələrini böyük uğurla yerinə yetirirlər",- deyə təbrikdə bildirilir.

Hulusi Akar bildirib ki, yerli və milli müdafiə sənayemizin təmin etdiyi imkanlarla, yüksək ixtisaslı pilotlarımızla Hərbi Hava Qüvvələrimiz çox daha güclü, səmalarımız isə təhlükəsiz olacaq.

# Regionda mövcud vəziyyət müzakirə olunub

## Ceyhun Bayramov ABŞ-nin "Xəzər Siyasət Mərkəzi"nin nümayəndə heyəti ilə görüşüb

**26 aprel 2023-cü il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ-da fəaliyyət göstərən "Xəzər Siyasət Mərkəzi"nin ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb.**




XİN-dən bildirilib ki, görüşdə, Xəzər regionunda siyasi, iqtisadi, təhlükəsizlik vəziyyəti, bu sahələr üzrə tədqiqatların aparılması sahəsində əməkdaşlıq məsələləri və perspektivlər, o cümlədən regionda mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov, ölkəmizin də bir hissəsi olduğu Xəzər dənizi regionu üzrə elmi-analitik tədqiqatların aparılmasının vacibliyindən bəhs edərək, Azərbaycanın beyin mərkəzləri ilə əməkdaşlıq məsələlərinə əhəmiyyət verdiyini bildirib. Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzləri ilə sıx əməkdaşlığın qurulması, əlaqələrin inkişaf etdirilməsinin Mərkəzin fəaliyyətinə töhfə verəcəyinə dair inam ifadə edilib.

Nazir Ceyhun Bayramov, post-münaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, sülh gündəliyinin irəli aparılması sahəsində fəaliyyət və mövcud çağırışlar barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Ermənistanın əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində öhdəliklərindən boyun qaçırmasının bölgədə davamlı sülh və təhlükəsizliyin təmin olunmasına, iki ölkə arasında münasibətlərin normallaşmasına təhdid törətdiyi diqqətə çatdırılıb. Laçın-Xankəndi yolunda yaradılmış sərhəd-keçid məntəqəsi qərarının mahiyyəti barədə məlumat verilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Generallar gəldi-gedərdi

## Azərbaycan Qarabağda elə reallıqlar yaradıb ki, komandanı dəyişməklə nəticə dəyişməyəcək

**Rusiya Silahlı Qüvvələrinin Quru Qoşunları Baş Komandanının müavini, general-polkovnik Aleksandr Lentsov Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandiri təyin edilib.**

**Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib. O, bu postda general Andrey Volkovu əvəzləyib. Lentsov 2020-ci ilə qədər isə Quru Qoşunlarının Baş komandanının müavini olub.**

Çeçenistandakı hər iki müharibədə, Əfqanıstanda, 2008-ci ildə Gürcüstan, 2014-2015-ci illərdə isə Ukraynadakı hərbi əməliyyatlarda iştirak edib. Rusiyanın Suriyadakı qoşun birləşmələrinin komandanının müavini olub. Bundan əlavə, generalın danışıqlar aparmaqda xüsusi məharətinin olduğu deyilir. Rusiyanın Ermənistandakı əsas təbliğatçısı sayılan bloger Mikayıl Bədəlyan Moskvadan olan yüksəkvəzifəli qrupun, guya, bir müddət əvvəl Bakı ilə danışıqlar apardığını iddia edib. Onun sözlərinə görə, Kreml situasiyanın bütün ciddiliyini dərk etməyə başlayıb. Ona görə Ermənistanda yaxın zamanlarda hərəkətə keçməyə hazırlıq aparılır: "Maraqlı məqam Moskvanın Ermənistandakı təsir agentlərinin də aktivliklərini artırmasıdır. Xüsusilə Rusiya müdafiə nazirinin müşaviri Aleksandr Lentsovun Qarabağdakı sülhməramlılara rəhbər gətirilməsi xəbəri onların fəallaşmasına şərait yaradıb". Bədəlyan Rusiya müdafiə nazirinin müşaviri Aleksandr Lentsovun gəlişindən sonra çox şeyin dəyişəcəyini iddia edib.



> Laçın rayonunun Ermənistanla sərhədində postun qurulması o deməkdir ki, bütün nəzarət Azərbaycandadır

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında bildirib ki, Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandanlığından dəyişikliyin intensiv hal alması ondan xəbər verir ki, sülhməramlılar Moskvanın etimadını doğrultmur. Analitik qeyd edib ki, rus sülhməramlılarının komandanı regionda, tərəflər arasında Kremlin arzuladığı balansı qura bilmir**: "Dekabr ayından bu yana Azərbaycan ekofəalları Şuşa-Xankəndi yolu üzərində dinc aksiyaya başladılar. Bu aksiya Rusiya və Ermənistana Qarabağ üzərindən qanunsuz əməllərini icra etməyə imkan vermədi. Ermənistanın terrorçu dəstələrinin, separatçı rejimin və Rusiyanın Qarabağdakı maraqları təmin olunmadı. Məlum olaylardan sonra Laçın yolunda nəzarətin Azərbaycana keçməsi Rusiyanın Ermənistanda və Qarabağdakı nüfuzuna böyük zərbə vurdu. Bunu xüsusi qeyd etmək lazımdır. Ermənistanın, separatçıların gözləntiləri belə deyildi. Onlar ümid edirdi ki, Moskva qısa müddətdə Azərbaycana təzyiq göstərəcək və rəsmi Bakı geri addım atacaq. Ancaq bunlar baş vermədi və ermənilərin ümidləri özünü doğrultmadı. Sülhməramlı komandanların tez-tez dəyişdirilməsi bununla bağlıdır".

**S.Hümbətov vurğulayıb ki, müdafiə naziri Sergey Şoyqu öz müşavirini Qarabağa göndərməklə nəzarəti bərpa etməyə səy göstərir:** "General Lentsov Rusiya tərəfindən icra edilən bir çox hərbi əməliyyatlarda iştirak edib. Lakin bu məqamın indiki halda nəyisə dəyişəcəyi ehtimalı yoxdur. Komandanlığın dəyişməsi mövcud nəticənin dəyişməsinə gətirib çıxartmayacaq. Laçın rayonunun Ermənistanla sərhədində postun qurulması o deməkdir ki, bütün nəzarət Azərbaycandadır. Bundan sonra yolun başında qurulmuş nəzarət-buraxılış məntəqəsinin oradan götürülməsi qeyri-mümkündür".

**Hərbi ekspert Üzeyir Cəfərov isə bildirir ki, general-polkovnik Letsovun təyinatı heç nəyi dəyişməyəcək:** "Onlar Moskvadan aldığı təlimatlar əsasında fəaliyyət göstərirlər. İlk dəfədir, general-polkovnik rütbəsində olan şəxs sülhməramlılara komandan təyin edilib. O, prinsip etibarilə Kremldən gələn göstərişləri yerinə yetirəcək. Yəni məlum təyinatdan böyük dəyişikliklər gözləmək lazım deyil.

Bu prosesin Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması ilə heç bir əlaqəsi yoxdur. Sadəcə hadisələr üst-üstə düşür. Volkovun getmək vaxtı idi və dəyişdilər".

Ekspertin sözlərinə görə, Letsovun təyinatı biznes maraqlarına əsaslanır: "Onlar bilir ki, ermənilərin yüklərini sərhəddən keçirməklə yaxşı pul qazana bilərlər. Yeni general bu məqsədlə gətirilib. Volkov indiki vaxta qədər kifayət qədər vəsait toplamışdı. İndi də baxaq görək yeni general-polkovnik hansı qiymətə ermənilər üçün yük daşıyacaq.

Düzdür, yoxlama aparılır və hərbi yüklərin olması mümkün deyil. Lakin yəqin ki, mülki yüklərin aparılıb-gətirilməsi üçün ruslar pul alacaq".

**İsmayıl Qocayev,**
**Nihat Müzəffər**

# "Xaricdən Azərbaycana qarşı təzyiqlərin heç bir mənası olmayacaq"

## Fuad Abbasov: "Ekofəalların Qarabağın ermənilər yaşayan ərazisinə nəzarət edilməsində çox böyük rolu var, etirazların davam etdirilməsi lazımdır"



"İran-Azərbaycan sərhədi tam nəzarətə keçdikdən sonra ölkəmizə qarşı təxribatlar aparmaq üçün yol qalmayacaq"

**Tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasovla son siyasi proseslər ətrafında müzakirə apardıq.**

"Şərq" müsahibəni təqdim edir.

- Aprelin 23 də Laçın-Xankəndi yolunda nəzarət buraxılış məntəqəsinin yaradılması hansı perspektiv və dividendlər vəd edir?

- Bu, çox gecikmiş bir addımdır. Məlum nəzarət məntəqəsi 2020-ci ildə döyüş başa çatdıqdan sonra qələbə qazanmış ordumuz tərəfindən yaradılmalı idi. Əgər belə olsa idi, torpaqlarımızda 2021-2022-ci il istehsalı olan minalar yerləşdirilməz və vətandaşlarımız, hərbçilərimiz qurban olmazdı. Lakin belə bir deyim var "Gec olsun, güc olsun". Gec də olsa yaxşı ki, açıldı. Ümid edirəm ki, post bundan sonra Azərbaycandan başqa heç kəsin nəzarətinə keçməz. Çünki məntəqənin açılmasına bir çox dövlətlər qarşıdır. Ermənistan tərəfinin ən böyük arzusu ora başqa qüvvələrin nəzarət etməsidir. Bu isə bizim üçün əlverişli deyil. Yəni əsas məsələ məntəqəni əldə saxlamaqdır.

**- 2020-ci il 10 Noyabr üçtərəfli bəyanatının imzalanması ərəfəsində Ermənistan dəhlizin 20 km enində və öz nəzarətində olmasını təkid etməklə nəyə çalışırdı?**

- Ermənistanın bütün təkid və istəkləri Qarabağda "status-kvo"nun saxlanması idi. Onlar Qarabağın ətraf rayonlarının əldən çıxdığını, İran-Azərbaycan sərhədinin nəzarət altına keçdiyini və dövlətlərin Ermənistana təsir mexanizminin sıfıra edirilməsini gördükdən sonra Qarabağ və Ermənistan arasındakı əlaqənin saxlanılması üçün 20 km yolu nəzarətə alıblar. Burada əsas məqsəd yol vasitəsilə separatçılara silah-sursat daşımaq və mövcud atəş nöqtələrindən istifadə edərək, Azərbaycan əsgərinə qarşı savaş aparmaqdır. Amma yaxşı ki, o vaxt alınan qərarlarla dəhlizin mümkün olduğu qədər dar olmasına və nəticə etibarilə bir yola qədər azaldılmasına nail olduq.

**- Ermənistan 7 km yolun istifadəyə verilməsini süni şəkildə ləngidir. Bununla vaxt udmağamı çalışır?**

- Onlar vaxt udmağa çalışsalar da, bütün proseslər və zaman Ermənistanın əleyhinə işləyir. Rəsmi İrəvan bu zaman kəsiyində İran, ABŞ və Fransadan dəstək almağa çalışır. Bu dəstəyin istədiyi qədər olmadığının fərqinə vardıqdan sonra isə üzünü Hindistana tutur. Digər tərəfdən, cənub qonşumuzu üzərimizə yönləndirərək, bizə qarşı çıxardır. Bütün bunlar üçün isə zaman lazımdır. Onlar da vaxt qazanmaq üçün yolun inşasını ləngidirlər. Mənə elə gəlir ki, yol Azərbaycan tərəfindən inşa edilsə idi, bəlkə də 7 həftəyə bitərdi.

**- Ekofəalların aksiyasının məntəqənin qurulmasında və ermənilərin qarşısına sədd çəkilməsində rolu olubmu?**

- Ekofəalların Qarabağın ermənilər yaşayan ərazisinə nəzarət edilməsində çox böyük rolu var. Bundan sonra da bu etirazın davam etdirilməsi lazımdır. Çünki Qarabağın təbii sərvətlərinin talan edilməsi və eyni zamanda bölgəyə minalar, sursat və erməni hərbçilərinin gətirilməsinin qarşısını alan ekofəallar oldu. Digər tərəfdən, nəzarət-buraxılış məntəqəsinin açılması da ekofəalların başlatmış olduğu fəaliyyətin nəticəsidir və bundan sonrakı proseslərdə də onların dirənişi köməyə çatacaq.

**- Azərbaycana qarşı dünyada kampaniya təşkil edilməsində və xarici mediada ölkəmizə qarşı "qara-piar" aparılmasının səbəbi nədir? Burada erməni lobbisinin izləri görünürmü?**

- Erməni lobbisi hər zaman Azərbaycanın maraqlarına zidd fəaliyyət aparır. Həmçinin onlar Ermənistana dəstək vermək üçün yüz ildir bu fəaliyyətləri yürüdürlər. Nəticə etibarilə Azərbaycanın bu diaspora qalib gələcək ölkə daxilində potensialı yoxdur. Bunu ancaq xaricdəki diasporlarımız qrup fəaliyyəti apararaq həyata keçirə bilər. Çox təəssüf bizim lobbi fəaliyyətlərimiz ermənilərin apardığı işlərdən geridə qalır və demək olar ki, rəsmi Bakının razılığı olmadan heç bir fəaliyyət aparılmır. Qarabağda uduzmuş erməni hakimiyyətinə lobbi tərəfindən dəstək kampaniyası başladılaraq, məğlubiyyəti minimuma endirməyə çalışırlar. Bunun üçün də Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Lakin bunun heç bir mənası olmayacaq. Ancaq bu o demək deyil ki, biz addımlar atmayacağıq. Ermənilərin çox yaşadığı yerlərdə olan xarici diasporlarımız, lobbi fəaliyyətinə qarşı çıxmalıdırlar. Yəni Bakıdan idarə edilməklə hansısa müvəffəqiyyətə çatılacağına inanmıram.

**- Ermənilər tərəfindən alternativ yollarla silah daşınmasının və təxribatların qarşısını almaq fonunda yeni yaradılan məntəqənin effekti varmı?**

- Alternativ yollardan silah daşınmasının və təxribatların qarşısının alınmasına bu postun birbaşa təsiri var. Çünki məntəqənin yaradılmasındakı birinci məqsəd, Azərbaycana qarşı olan təxribatların qarşısını almaqdır. Bu təxribatlar Ermənistan sərhədindən ölkəmizə gətirilən mina, silah-sursat və canlı qüvvənin vasitəsilə həyata keçirilirdi. İran vətəndaşlarının Qarabağa gətirilməsi də bu yoldan istifadə edilərək baş tutmuşdu. Biz nə qədər ekofəalları hərəkətə keçirsək və yolda aksiyalar etsək də, onlar alternativ yollarla öz əməllərinə davam edirdi. Ancaq sərhədin tam çıxışında nəzarət məntəqəsi qurmaq, erməni təxribatlarının birbaşa yolunu kəsdi. İran-Azərbaycan sərhədi tam nəzarətə keçdikdən sonra ölkəmizə qarşı təxribatlar aparmaq üçün yol qalmayacaq. Amma bu o demək deyil ki, Ermənistanın Azərbaycana qarşı terror fəaliyyətləri olmayacaq. Biz bütün dünyada erməni terrorçuların ad çıxardığını yaxşı bilirik. Bunun üçün də onlardan hər zaman "sürprizlər" gözləməliyik.

**Söhbətləşdi: Nihat Müzəffər**




# Zamanı çatdı

## Qarabağdakı ermənilərə Azərbaycan pasportu verilməlidir

**Qarabağda yaşayan ermənilərə verilmiş Ermənistan Respublikasının pasportlarının vaxtı uzadılmır. Qeyd olunub ki, Qarabağdakı ermənilərin hamısında bu pasportlardan var. Çünki qondarma "Artsax"ın saxta pasportu dünyanın heç bir yerində, hətta Ermənistanın özündə belə qəbul edilmir.**

Ermənistan mediasının gündəmə daşıdığı problem odur ki, Qarabağ ermənilərinin əksəriyyətinin şəxsiyyətini təsdiqləyən sənədlərin vaxtı bitib, lakin onlara yeni pasport verilməyib. Deyilənə görə, məmurlar onlara edilən müraciətləri geri çevirərək, ümumiyyətlə, erməni pasportunun verilməyəcəyini bildiriblər. Ermənistan mediası bu cür xəbərlər fonunda Azərbaycanla reinteqrasiyanın qaçılmazlığı haqqında ağlaşma qurmaqdadır. Bəzi erməni ekspertləri isə iddia ediblər ki, Qarabağdakı ermənilərə rus pasportları veriləcək. O səbəbdən İrəvan bölgədəki ermənilərə yaxın durmur.

> "İstər Xankəndi, istər Xocavənd erməniləri olsun, hər biri Azərbaycan vətəndaşıdır, ona görə də bizim qanunları qəbul etməlidirlər"

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, bənzər anormal addımların və təhlükəli məqsədlərin daha əvvəl də şahidi olmuşuq. Analitik xatırladıb ki, 44 günlük müharibədən sonra qondarma rejim rus dilini "dövlət dili" elan etmişdi:** "Rus dilinə xüsusi statusun verilməsi, orada yaşayan ermənilərə rus pasportunun paylanması xəbərləri separatçıların Moskvanın himayəsində olması görüntüsü kimi qiymətləndirilə bilər. Əlbəttə, Rusiyanın özü də bu məsələdə maraqlı tərəfdir. Ermənistanda təsiri azalan Kreml bunun əvəzini Qarabağda çıxmağa çalışır. Rusiya Qarabağdakı erməniləri nə olursa-olsun, əlində saxlamağa çalışır və siyasi məqsədləri üçün istifadə edir. Azərbaycan ərazilərinə yerləşdirilmiş Rusiya sülhməramlıları ilə erməni qızlarının evlənməsi prosesi üzərindən də rus pasportlu ermənilərin sayı artırılır. Bu, Azərbaycan qanunlarına zidd aparılan prosesdir. Dövlətimiz mümkün qədər tez zamanda Qarabağdakı ermənilərin Azərbaycan vətəndaşlığına qəbul olunması üçün səylərini artırmalıdır".

*S.Əsədli hesab edir ki, Azərbaycan qanunları ikili vətəndaşlığı qəbul etmir:* "Bu məsələnin qarşısı mütləq alınmalıdır, sabah gec ola bilər. Rusiya bu oyunları Gürcüstanda, Ukraynada həyata keçirib. Özünə loyal tayfalara rus pasportu paylamaqla sonradan bu ölkələrin ərazisində qondarma "respublikalar" yaradıb. Bu, Rusiya tərəfindən Azərbaycana qarşı aparılan hibrid müharibənin tərkib hissəsidir. Halbuki istər Xankəndi, istər Xocavənd erməniləri olsun, hər biri Azərbaycan vətəndaşıdır, ona görə də bizim qanunları qəbul etməlidirlər. Lakin əvvəlcə sülh müqaviləsi bağlanmalı, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, məsələ həll olunmalıdır".

**İsmayıl Qocayev**



# İstiqamətimiz doğrudur

## Azərbaycanın Avropa enerji bazarındakı çəkisi artacaq

**"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Bolqarıstan səfəri ölkəmizin həm beynəlxalq münasibətlər, həm də əməkdaşlıq sistemində davamlı uğurunun növbəti göstəricisidir".**

*Bunu "Şərq"ə açıqlamasında millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu ölkə başçısının səfərini dəyərləndirərkən deyib.*

O qeyd edib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əlahiddə rola malikdir: "Ölkəmizin Avropa enerji bazarındakı indiki rolu əvəzedilməzdir. Azərbaycan və Avropa arasında son dövrlərdəki əməkdaşlığın intensivliyi bunu bir daha nümayiş etdirir. Nəzərə almaq lazımdır ki, Azərbaycan təkcə ənənəvi deyil, bərpa olunan enerji mənbələrinin yaradılmasında ciddi aktivlik nümayiş etdirən ölkələrdən biridir. Bu da ölkəmizin enerji sahəsindəki əməkdaşlıq imkanlarını şaxələndirir. Bu baxımdan Prezident İlham Əliyevin Bolqarıstana rəsmi səfəri enerji əməkdaşlığının genişləndirilməsi üçün əhəmiyyətli oldu. Bildiyimiz kimi, enerji sahəsində əməkdaşlıq üçün razılaşma memorandumu imzalandı. Bu memorandumun imzalanması isə Azərbaycanın gələcəkdə Avropa enerji bazarındakı çəkisini daha da artıracaq".

Parlamentari əlavə edib ki, gələcəkdə SOCAR ilə Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiyanın qaz nəqli sistemləri operatorları arasında əməkdaşlığın inkişafı nəzərdə tutulur: "Bu istiqamətdə təmasların davam etdirilməsi planlaşdırılır. Ümumiyyətlə, Bolqarıstan Prezidenti Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini vurğulayıb və ölkəmizi önəmli strateji tərəfdaş adlandırıb. O qeyd edib ki, "Azərbaycan olduqca etibarlı əməkdaşlıq tərəfdaşıdır və əldə edilmiş razılaşmaların öhdəliklərinə dəqiqliklə əməl edir". Bu baxımdan hesab edirəm ki, ölkə başçısının Bolqarıstan səfəri bir daha Azərbaycanın çox böyük əməkdaşlıq perspektivlərinə malik olduğunu nümayiş etdirdi".

Xatırladaq ki, aprelin 25-də Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstana rəsmi səfər edib.

Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd olunub.

**Nihat Müzəffər**

# Təbliğ etməliyik

## Biz Qərbi Azərbaycan həqiqətlərini bilən, məlumatı olan gənclik yetişdirməliyik



**Ötən gün Qərbi Azərbaycan İcmasında "Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında könüllülərin fəaliyyətinin təşviq edilməsi" məqsədilə məlumatlandırma sessiyası keçirilib. İ**

cma sədri deputat Əziz Ələkbərli məhz bu cür çağırışların dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəaliyyətinin intensivləşdirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, biz Qərbi Azərbaycan həqiqətlərini bilən, məlumatı olan gənclik yetişdirməliyik:

"Biz Qarabağla bağlı həqiqətlərimizi yavaş-yavaş dünyaya çatdırmaqdayıq. İndi isə Qərbi Azərbaycanla bağlı həqiqətləri dünyaya çatdırmaq, təbliğ etməyin zamanıdır və bu, bir nəfərin işi deyil". Əziz Ələkbərli soydaşlarımızın tarixi torpaqlarına sülh yolu ilə qayıtması məsələsinə toxunub. İcma sədri qərbi azərbaycanlıların öz yurdlarında təhlükəsizliyinin vacibliyini diqqətə çatdırıb. O, məhz bu cür çağırışların dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəaliyyətinin intensivləşdirilməsinin zəruriliyini qeyd edib. Gənclər və idman nazirinin müavini İndira Hacıyeva isə gənclərin azərbaycanlıların öz yurd-yuvasına geri qayıtması uğrunda apardığı bu haqq mübarizəsində daha yaxından iştirak etməsinin çox böyük önəm daşıdığına diqqət çəkib: "Azərbaycan gəncliyi istər ölkə daxilində, istərsə də xaricdə bu mübarizəyə dəstək verəcək kifayət qədər gücə və əzmə malikdir". Sonra Gənclər Fondunun, "Regional İnkişaf" İctimai Birliyinin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının nümayəndələri çıxış ediblər. Çıxışlar zamanı Qərbi Azərbaycan mövzusunun hər bir azərbaycanlının milli məsələsi olması və gənclərin bu məsələdə fəallıq göstərməli olduğu xüsusilə vurğulanıb. Daha sonra Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədri, millət vəkili Ramin Məmmədovun təqdimatı baş tutub. Yekunda Qərbi Azərbaycandan olan könüllülər çıxış edərək yaxınlarının və özlərinin bu deportasiyalar və soyqırımları nəticəsində yaşadıqları ağrı-acılardan bəhs edərək Qərbi azərbaycanlılar və onların yaşadıqları, eləcə də geri qayıdış hüquqları ilə bağlı gənclərin daha da fəal iştirak edəcəyini bildiriblər.

**Millət vəkili Naqif Həmzəyev "Şərq"ə açıqlamasında bildirib ki, Qərbi Azərbaycan İcması bütün fəaliyyətini bir müddət öncə hazırladığı Qayıdış Konsepsiyasına uyğun həyata keçirir.**

**Deputatın sözlərinə görə, Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlılarla bağlı təfsilatlı, dəqiq siyahı hazırlanmaqdadır:** "İcma tərəfindən bir çox beynəlxalq qurumun rəhbərliyinə, ölkə başçılarına müraciətlər ünvanlanıb. Yəni bu istiqamətdə mühüm işlər görülməkdədir. Təbii ki, görülən işlərlə yanaşı, Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatları və ictimai fəallarla Qərbi Azərbaycan həqiqətlərinin həm ölkəmizdə, həm də əsasən xaricdə geniş təbliği ilə bağlı xüsusi işlər görməliyik. Gənclərimizin Qərbi Azərbaycanın tarixi, yer adları və soydaşlarımızın məruz qaldıqları ədalətsizliklə, hüquqsuzluqla bağlı məlumat sahibi olması üçün ciddi çalışmalar ortaya qoyulmalıdır. Gənclərimiz Qərbi Azərbaycanı çox yaxşı tanımalı və bütün imkanları ilə dünyaya tanıtmalıdırlar. Həmçinin Qayıdış Konsepsiyasının həyata keçirilməsi ilə bağlı da öz töhfələrini verməlidirlər. Bu baxımdan İcma gənclər təşkilatları və könüllülərlə təmaslarını sıxlaşdırır. Yaxın dövrdə Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin də bu istiqamətdə gördüyü işlərin şahidi olacağıq. İnanırıq ki, hər bir gəncimiz Qərbi Azərbaycanla daha yaxından maraqlanacaq, öyrənəcək və qayıdış prosesinin sürətlənməsi üçün əlindən gələni əsirgəməyəcək".

**İsmayıl Qocayev**

# Laçın yolunda nəzarət-buraxılış məntəqəsi mütləq qurulmalıydı

## Beynəlxalq güclərin problemi hansısa formada həll etmək niyyəti yoxdur



“Laçında qeyri-müəyyən vəziyyət qalarsa, sərhədlərin demarkasiya və delimitasiyası necə başa çatacaq?!”

**Ermənistanın Baş naziri Nikol Paşinyanla Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında telefon danışığı olub. Tərəflər Cənubi Qafqazdakı mövcud durumu müzakirə ediblər.**

Paşinyan və Mişel Ermənistan-Azərbaycan arasında aparılan danışıqların gedişatını, regionda sülh və sabitliyin təmin edilməsi üçün ardıcıl səylərin vacibliyini qeyd ediblər. Qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putin də Ermənistan Baş naziri Nikol Paşinyanla telefon əlaqəsi saxlayıb. Tərəflərin müzakirə mövzusu Laçın yolu və Qarabağdakı humanitar vəziyyətlə bağlı məsələlər olub.

**Politoloq İlqar Vəlizadə ”Şərq”ə bildirib ki, Qərb ölkələri, Avropa Birliyi Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurmasını açıq-aşkar narahatlıq və narazılıqla qarşıladılar. Ekspertin sözlərinə görə, ABŞ və Avropanın məsələyə bu cür reaksiya verəcəyi gözlənilən idi:** ”Qərbin Cənubi Qafqazdakı proseslərə 30 illik qərəzli yanaşması bizi qane etməyib. Şarl Mişel, Cozef Borell, Makron və s. bizim taleyimizi həll etmir. Məhz özlərinin sərgilədiyi mövqeyə görə onların yanaşması bizim üçün maraqsız və əhəmiyyətsizdir. Daim ”narahat” olublar, quru bəyanatla, tərəflərə çağırışla işlərini bitmiş sayıblar. Yəni Qərb strukturlarının mövqeyinə bələdik və indi də dəyişən heç nə yoxdur. Müsbət gözləntimiz sıfırdır. Şarl Mişel belçikalıdır. Belçikanın sərhədlərinin bir hissəsi nəzarətsiz olsa, silahlı güclərin davamlı təhdidinə məruz qalsa, hansı addımı atarlar? Reaksiyaları, münasibətləri necə olar? Dünyanı ayağa qaldırarlar. Azərbaycan beynəlxalq hüquq normalarına əsaslanaraq, ərazilərinin, sərhədlərinin təhlükəsizliyini təmin edir. Kiminsə bundan narahat olması, kiməsə şikayətlənməsi bizi qətiyyən maraqlandırmır”.

**İ.Vəlizadə vurğulayıb ki, beynəlxalq güclərin problemi hansısa formada həll etmək niyyəti yoxdur:** ”Rusiya, ABŞ, Avropa ölkələri deyirlər ki, tərəflər arasında sülh olmalı, kommunikasiya açılmalı, sərhədlərin müəyyənləşməsi həyata keçməlidir. Laçında qeyri-müəyyən vəziyyət qalarsa, sərhədlərin demarkasiya və delimitasiyası necə başa çatacaq?! Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımazsa, ərazi iddiaları davam edərsə, sülh müqaviləsi necə imzalana bilər? Rəsmi Bakının addımları məntiqə əsaslanır. Məqsədimiz sərhədlərimiz daxilində suverenliyimizi qeyd-şərtsiz bərpa etmək və regionda sülhə, sabitliyə nail olmaqdır. Kənar reaksiyaları da əvvəlcədən hesablayırıq və bilirik ki, onların proseslərə real təsir imkanları yoxdur”.

**İsmayıl Qocayev**

**Azərbaycan tərəfi irqi ayrı-seçkiliklə bağlı Ermənistanın Azərbaycana qarşı qaldırdığı iddiaya qarşı ilkin etirazlarını rəsmən Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib. Azərbaycanın qeyd edilən ilkin etirazları ilə əlaqədar Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddia sənədinə baxılmanı dayandırıb.**



# İrəvanın iddiası baxılmadan rədd olunub

## Məhkəmənin qərarı Ermənistanın beynəlxalq aləmdə növbəti fiaskosu sayıla bilər

*Demokratiya və İnsan*

*Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov ”Şərq”ə deyib ki, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın Azərbaycana qarşı gülünc və əsassız iddiasını baxılmadan rədd etməsi Azərbaycanın beynəlxalq təşkilatlarda və diplomatik arenada növbəti qələbəsi sayıla bilər.* Ekspertin sözlərinə görə, Azərbaycan və Ermənistan arasında müharibədən sonra informasiya məkanında, beynəlxalq məhkəmələrdə və qlobal qurumlar çərçivəsində səssiz savaş gedir: ”Ötən ilin noyabr ayında və bu ilin yanvar ayında Azərbaycan Haaqada yerləşən Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanla bağlı irqi ayrı-seçkiliyin bütün növlərinə qarşı mübarizə ilə bağlı iki iddia qaldırıb. Məhkəmə iddiaları əsasən 30 illik işğal dönəmində və sonrakı vaxtlarda torpaqlarımızdakı tarixi-mədəni abidələrimizin, təbii sərvətlərimizin, mülki vətəndaşlara aid evlərin talan edilməsi, dağıdılması ilə bağlıdır. Digər məsələ isə işğaldan azad edilmiş ərazilərdə yüz minlərlə minanın basdırılmasıdır. Bu da müharibə cinayəti sayılır. Bu məsələlərə hüquqi-siyasi müstəvidə qiymət verilməsi, hüquqi sənədlərdə öz əksini tapması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması çox əhəmiyyətlidir. Ermənistan tərəfi isə adekvat addımlar atmaq niyyəti ilə BƏM-nə tələsik, heç bir sübutu və dəlili olmayan iddialarla müraciətlər edir. Bir neçə ay öncə Ermənistan tərəfi Azərbaycanı məhkəməyə vermişdi ki, guya, ölkəmizdə erməni hərbi əsirlər qanunsuz olaraq saxlanılır və s. Halbuki Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirib. Üçtərəfli müqavilənin şərtlərinə əsasən, Azərbaycanda saxlanılan bütün erməni hərbi əsirlər geri qaytarılıb. Bundan sonra Ermənistanın Azərbaycana qarşı hansısa iddia irəli sürmək üçün bəhanəsi qalmamışdı. Buna rəğmən, Ermənistan əsassız ittihamlarla yenə də Azərbaycana qarşı iddia qaldırmışdı. Beynəlxalq Ədalət Məhkəməsi hər iddiadan sonra tərəflər arasında kommunikasiya başladır və qarşı tərəfə sorğu göndərir. Rəsmi Bakı Azərbaycana göndərilən sorğuya dəlil və sübutlarla cavab verib və Ermənistanın iddialarının əsassız olduğunu isbatlayıb. Bu da BƏM tərəfindən qəbul edilib və İrəvanın iddiası baxılmadan rədd olunub. Məhkəmənin qərarı Ermənistanın beynəlxalq aləmdə növbəti fiaskosu sayıla bilər”.

**İsmayıl Qocayev**

# Nağdsız ödəmələrdə ciddi problemlər yaşanır

## İstehlakçılardan almadıqları məhsulun pulunu çıxırlar

**Geyim mağazalarında nağdsız ödəmə məsələsində ciddi problemlər yaşanır. Nədənsə, alış-veriş edib kassaya yaxınlaşanda kartla ödəmədə problem olur. Nə vaxt nə alırsan, kartla ödəniş etmək istəyəndə bildirirlər ki, kartla ödəniş etməkdə problem var.**

Ödəniş etmək olmur. Ya aparat (post-terminal) ”işləmir”, ya da sistem ”donur” . Şübhə yaradan isə ilin 12 ayı aparatların xarab, sistemin isə dolu olmasıdır.

Alış-veriş mərkəzlərində alıcılar ödəməni kartla etmək istəyəndə satıcıların ”qaşqabağı yer süpürür” və ”aparatımız işləmir, kartdan- karta ata bilərsiniz” -deyirlər. Hətta interneti aktiv olmayan alıcılar üçün ”wifi” parolu belə təklif edirlər.

Dövlət tərəfindən nağdsız ödənişlər stimullaşdırılır. Banklar nağdsız ödənişlər üçün müəyyən kampaniyalar tətbiq edir, amma bu cür mağazalar nağdsız ödənişlərdən yayınır.

Ölkədəki bütün post-terminallar ”nasazdır” yoxsa, məqsəd vergidən yayınmaqdır?



“Qabıqlı qoz aldığım halda çekə qoz ləpəsi yazırlar. Və bu, tək mənim yox, minlərlə istehlakçının başına gəlib”

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ”Şərq”ə açıqlamasında deyib ki, təkcə geyim mağazalarında yox, özəl klinikalar, yanacaqdoldurma məntəqələri, avtoservislərdə və digər kiçik dükanlarda bu məsələ geniş yayılıb:** ”Bu, həm qanun pozuntusudur, həm də istehlakçı hüquqlarının pozulması deməkdir. Ümumiyyətlə, ticarət və iaşə obyektlərində dövlətin qanunları boykot olunmaqdadır. Azərbaycanda iqtisadiyyatın nağdsızlaşdırılması biznes sferasında fəaliyyətin tam şəffaflaşdırılmasını və eyni zamanda vergidən yayınma hallarının aradan qaldırılmasını nəzərdə tutur. Bu olduqca mühüm bir məqamdır. Hesablaşmaların nağd qaydada aparılması vergidən yayınmaq üçün münbit mühitin mövcud olması deməkdir. Hökumət bu istiqamətdə QHT və KİV-lə birlikdə kifayət qədər effektiv layihələr həyata keçirir, nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə bir sıra güzəştlər tətbiq edir. Lakin buna rəğmən keçid prosesində müəyyən axsamalar var. Təəssüflər olsun ki, bu sahibkarların fırıldağı əhalinin nağdsız ödənişlərə olan inamını azaldır. Təsəvvür edin ki, nağdsız ödəniş zamanı marketlərdə məni - Eyyub Hüseynovu belə aldatmağa cəhd ediblər. Kartla ödəmə zamanı istehlakçılardan almadıqları məhsulun pulunu çıxırlar. Təsəvvür edin, telefonuma gələn bildirişə baxmasam, kartımdan 8 manat əvəzinə 68 manat çıxacaqdılar. Qabıqlı qoz aldığım halda çekə qoz ləpəsi yazırlar. Və bu, tək mənim yox, minlərlə istehlakçının başına gəlib. Nağdsız ödənişlərdən sui-istifadə edən marketlər hökumətin əhəmiyyətli siyasətinə dəstək vermək əvəzinə, sabotaj edirlər”.

**Şəymən**

# “Ruslar ərazimizdən tez çıxmalıdır"

## Pənah Hüseyn: “Bu zaman regionumuzdakı gərginlik aradan qalxacaq”

**“Rusiya sülhməramlılarının Azərbaycan ərazisində müvəqqəti yerləşdirildiyi məlumdur. Bakıda Azərbaycan və Rusiyanın hərbi hüquqşünaslarının işgüzar görüşü istər texniki, istərsə də son günlərdə yaranmış vəziyyət baxımından zəruri məsələ kimi meydana gəlib”.**



Bu sözləri ”Şərq”ə sabiq baş nazir, Xalq Partiyasının sədri Pənah Hüseyn Rusiyanın Azərbaycan-Ermənistan sərhədində və Qarabağ iqtisadi rayonunda ermənilərin təxribatları barədə məlumatlandırılmasından danışarkən deyib. O vurğulayıb ki, görüşün nəticələri barədə dolğun məlumatımız olduğu halda ətraflı dəyərləndirmə apara bilərik:

”Ümumilikdə mən və təmsil etdiyim siyasi çevrələrin mövqeyi ondan ibarətdir ki, Rusiya sülhməramlıları ərazimizdən mümkün qədər tez bir müddətdə tamamilə çıxmalıdır. Azərbaycanın dövlət suverenliyi bərpa olunmalıdır.

Qarabağda işləyən, eyni zamanda oradakı erməni mənşəli əhalinin təhlükəsizliyi məsələsi ölkəmizin üzərindədir. Həmçinin onlar Konstitusiyamızın hüquqi bazasına daxildirlər. Bu, mümkün qədər tez bitməlidir ki, regionumuzdakı gərginlik aradan qalxsın”.

Qeyd edək ki, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri arasında imzalanmış illik hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Görüşdə Azərbaycan-Ermənistan sərhədində və Qarabağ iqtisadi rayonunda ermənilərin təxribatları barədə Rusiya nümayəndə heyətinə məlumat verilib.

**Sücayət Mehti**

# Taksi sürücüləri risk qrupuna aiddir

## Avtomobilə kimin, hansı məqsədlə əyləşdiyini sürücünün bilməsi, təbii ki, mümkün deyil

**Taksi sürücülərinə qarşı soyğunçuluq, quldurluq halları artıb. Təəssüf ki, bu cür xəbərlərlə intensiv qarşılaşırıq. Növbəti belə hadisə paytaxtın Nizami rayonu ərazisində baş verib. ”BYD” markalı avtomobildə olan 2 sərnişin sürücünü bıçaqla hədələyərək 550 manatını quldurluq yolu ilə talayıb.**

Nizami RPİ 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində quldurluq əməlində şübhəli bilinən əvvəllər məhkum olunmuşlar Masallı rayon sakini Renat Şahbazov və Bakı şəhər sakini Elbrus Ələkbərov müəyyən olunaraq saxlanılıblar. Hadisə ilə bağlı Nizami Rayon Polis İdarəsində araşdırma aparılır. Bundan öncə, paytaxtın Nərimanov rayonunda da ”Toyota” markalı bir avtomobildə sərnişinin sürücünü bıçaqla hədələyib 450 manatını almışdı. Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində quldurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini Cavid Bağırzadə qısa müddətdə müəyyən olunaraq saxlanılmışdı. Oxşar hadisə bir neçə gün əvvəl Binəqədi rayonu ərazisində də qeydə alınıb. Taksi sürücüsünə qarşı soyğunçuluq edən şəxs Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsi əməkdaşları tərəfindən saxlanılıb.

**Taksi sürücüləri təhlükədən necə sığortalana bilər? Məsələylə bağlı ”Şərq”ə danışan nəqliyyat problemləri üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, taksi xidmətiylə məşğul olan şirkətlərin sürücülərinə qarşı bu cür hallara az-az rast gəlinir:**

- Taksi sürücüləri, ümumiyyətlə, risk qrupuna aiddir. Avtomobilə kimin, hansı məqsədlə əyləşdiyini sürücünün bilməsi, təbii ki, mümkün deyil. Soyğunçular, cinayətkarlar bilir ki, taksi sürücülərində həmişə pul olur, az və ya çox, fərq etmir. Soyğunçular çirkin əməlləri üçün əsasən gecə saatlarını seçirlər. Fikir verirsinizsə, soyğunçuluq, quldurluq hadisələri fərdi taksi xidmətiylə məşğul olanlara qarşı daha çox baş verir. Çünki şirkət taksilərində avtomobilin hərəkət qrafiki elektron cihaz vasitəsilə qeydə alınır. Sərnişin avtomobilə əyləşdiyi andan, avtomobil mənzil başına çatanadək getdiyi istiqamət şirkət tərəfindən izlənir. Müşahidə kameraları da olur. Sərnişinlər də bunu bilir və belə avtomobillərdə qanunazidd hər hansı əmələ yol verməyə cürət etmirlər. Amma fərdi taksi xidməti göstərənlərin avtomobillərində videokamera adətən olmur, onlar müşahidə altında deyillər, hərəkət istiqamətlərini izləmək mümkün deyil deyə, soyğunçular adətən bu avtomobil sürücülərini hədəfə alır. Taksi xidmətiylə məşğul olan şirkətlər sürücülərinin təhlükəsizliyini hansısa formada təmin edə bilir, fərdi taksi xidməti göstərənlərsə, məcburdur, təhlükəsizliklərini özləri təmin etsin.



Soyğunçular, cinayətkarlar bilir ki, taksi sürücülərində həmişə pul olur, az və ya çox, fərq etmir

**İ.Hüseynli qeyd etdi ki, hazırda müxtəlif izləmə və müşahidə cihazları mövcuddur:**

- Qiyməti 45 manatdan 150 manatadək olan videoqeydiyyat cihazları var ki, sürücülər onu alıb avtomobilin ön şüşəsinə yerləşdirə bilər. Bununla təhlükəsizliklərini müəyyən qədər təmin edə bilərlər. Avtomobilə əyləşən sərnişin videomüşahidə cihazının olduğunu görəndə istər-istəməz hərəkətlərinə diqqət edəcək. Təkcə soyğunçuluq üçün deyil bu qabaqlayıcı tədbir. Bəzən sərnişinlə sürücü arasında münaqişə yaranır. Gedilən məsafə, ödəniləcək məbləğ, xidmət keyfiyyətiylə bağlı. Belə hallarda mübahisənin həlli üçün ən optimal variant videoqeydiyyat cihazının yaddaşına müraciət etməkdir. Hər bir vətəndaşın hüquqları qanunla qorunur. Lakin videoqeydiyyat cihazı bu məsələdə tərəflərin köməyinə çatacaq.

**İ.Hüseynli fərdi taksi xidmətiylə məşğul olan şəxslərin təhlükəsizlik məqsədilə avtomobildə arakəsmələrdən istifadə etməsinin diskomfort yaradacağını xatırlatdı:**

- Vaxtilə paytaxta gətirilən bənövşəyi taksilərdə arakəsmələr vardı. Bu, avtomobil zavodu tərəfindən quraşdırılmışdı. Əvvəldən nəzərdə tutulmuş konstruksiya idi. Həmin avtomobillərin salonu geniş idi və arakəsmələr diskomfort yaratmırdı. Yadınızdadırsa, pandemiya dövründə taksi sürücülərindən sərnişinləri qabaq oturacaqda əyləşdirməmək, həm də arakəsmə kimi şəffaf örtüklərdən istifadə etmək tələb olunurdu. Bunun özü həm sürücülərə, həm də sərnişinlərə narahatlıq gətirirdi. Hazırda taksi xidmətində ən çox istifadə olunan ”Toyota Prius”lar, kiçiktutumlu avtomobillərdir, onlarda arakəsmələrdən istifadə etmək alınmayacaq. Çünki salonları dardır. Sadəcə, taksi sürücüləri bilməlidir ki, əgər onlardan kimsə pul tələb edirsə, aşkar şəkildə soyğunçuluq məqsədi varsa, inad etməməlidir, sakitcə, tələb olunanı versin, lakin sonra mütləq hüquq-mühafizə orqanlarına müraciət etsin. Bir sürücünün 2 soyğunçu ilə mübahisə aparması yersizdir, həyatına birbaşa təhlükədir. Bu cür vəziyyətlərdə necə hərəkət edilməlidir, şirkətlər də sürücüləri təlimatlandırmalıdır.

**Məlahət Rzayeva**

# "Məktəblinin dostu" hər məktəbdə olmalıdır

## Bu layihənin tətbiq olunduğu təhsil ocaqlarında şagirdlər arasında siqaret çəkmə halları 80 faizədək azalıb



**”Azərbaycanda həm xüsusi mühafizə olunan, həm polis tərəfindən məruzə edilən, həm də bütün məktəblərdə ən azı həyəcan düyməsi yerləşdirilib”.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. Onun sözlərinə görə, bu istiqamətdə müvafiq təlimlər də keçirilir: ”Məktəblərin təhlükəsizliyi baxımından ən uğurlu layihəmiz ”Məktəblinin dostu”dur. Artıq yüzdən çox məktəbdə bu layihə icra olunur. Bundan əvvəl məktəbdə zəhərlənmə halı baş verdikdə ilk müdaxiləni məktəb rəhbərliyi ilə yanaşı, ”Məktəblinin dostu” etmişdi. Bu layihənin əhatə dairəsinin genişləndirilməsinin tərəfdarıyıq. Nəzərə almaq lazımdır ki, ölkədə bir milyona yaxın şagird təhsil alır. Məktəblərdə xoşagəlməz hallardan sığortalanmamışıq. Bu yolla gələcəkdə belə halların qarşısını almaq üçün hansı addımlar atmalı olduğumuzu bilərik”.

**”Məktəblinin dostu” layihəsini dəyərləndirən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında 2016-cı ildən etibarən ölkəmizin təhsil sistemində ”Məktəblinin dostu” layihəsinin tətbiq olunduğunu xatırladıb.** Onun sözlərinə görə, layihənin məqsədi tədris prosesinin sağlam, təhlükəsiz, əlverişli psixoloji mühitdə təşkil edilməsi, valideynlərin övladlarının təhsil şəraiti barədə məlumatlılığını və məmnunluğunu artırmaqdır: ”Həmçinin müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilkin tibbi və psixoloji yardım göstərməkdir. Layihə hazırda Bakı şəhəri üzrə 186, Abşeronda 20, Sumqayıtda 20 təhsil müəssisəsində olmaqla, ümumilikdə 226 müəssisədə fəaliyyət göstərir. 400 minə yaxın şagirdi əhatə edən layihə üzrə hazırda 400 əməkdaş çalışır. Bu kimi layihələr dünyanın müxtəlif ölkələrində çeşidli adlarla uğurla sınaqdan çıxıb. Burada əsas hədəf məktəb - təhsil alan - valideyn üçbucağının tərəfləri arasında üfüqi ünsiyyətin qurulması və hədəf olaraq təhsil alana ahəngdar özünü gerçəkləşdirmə imkanları yaratmaqdır. Məktəblinin dostunun əsas vəzifəsi məktəblinin təhlükəsizliyini qorumaq, fövqəladə hal baş verdikdə müəllim heyətinə və şagirdlərə ilkin yardım göstərməkdir.

Fikrimcə, bu layihə bir az gecikmiş layihədir. Azərbaycanda təhsil müəssisələri ənənəvi idarəetmədən yeni idarəetməyə keçib. Biz görmüşük ki, məktəb idarəçiliyi-direktor, direktor müavini, sinif rəhbərləri vasitəsilə həyata keçirilir.

Amma bu sadaladığımız şəxslər birbaşa tədris prosesinin iştirakçısı olduğu üçün şagirdlərlə geniş şəkildə fəaliyyət göstərmək imkanına malik deyillər. Yəni sinif rəhbəri və yaxud da direktor müavini aktiv tədris prosesinin iştirakçısı olduğuna görə şagirdlərin bu və ya digər ehtiyacları, asudə vaxtlarının dəyərləndirilməsi ilə bağlı fəaliyyət göstərə bilmirlər”.

Ekspertin sözlərinə görə, orta məktəblərdə hər məktəblinin ayrı-ayrılıqda problemləri, sıxıntıları ilə bağlı işlər güclü şəkildə həyata keçirilə bilmirdi. Amma ”Məktəblinin dostu” vəzifəsini yerinə yetirən şəxs tədris prosesinin iştirakçısı olmadığı üçün birbaşa məktəbdə sosial fəaliyyəti həyata keçirirlər: ”Məktəblər arasında yarışlar keçirilir və yaxud məktəbdə neqativ halların aradan qaldırılmasında onlar müstəsna rola malikdirlər. Mənim araşdırmalarıma görə, məhz ”Məktəblinin dostu” layihəsi tətbiq olunan məktəblərdə şagirdlər arasında siqaret çəkmə halları 80 faizədək azalıb. Həmçinin məktəbə kənar şəxslərin daxil olmasının qarşısı alınıb. Bu layihə bir çox ölkələrdə də var. Məsələn, qardaş Türkiyədə, Gürcüstanda isə uzun müddətdir ki, fəaliyyət göstərir. Ölkəmizdə tətbiq olunması isə olduqca müsbət haldır. Məktəblinin dostu olan şəxs tədris prosesinin iştirakçısı olmadığı üçün məktəbdə bilik və idman yarışlarının, sosial fəaliyyətin həyata keçirilməsində yaxından iştirak edir. ”Məktəblinin dostu” seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

Hesab edirəm ki, ”Məktəblinin dostu” Azərbaycanda fəaliyyət göstərən 4500 orta ümumtəhsil məktəbinin hər birində tətbiq olunmalıdır. Çünki ”Məktəblinin dostu”, həqiqətən də, Azərbaycan təhsilinin, müəllim və şagirdinin, valideynin dostudur. Bəzən olur ki, valideynlər uşaqlarını gec götürürlər və həmin vaxt ”Məktəblinin dostu” şagirdin təhlükəsizliyini təmin edir. ”Məktəblinin dostu” layihəsində bu işi yerinə yetirənlərin konkret görəcəyi işlər, öhdəliklər, vəzifələr var. ”Məktəblinin dostu” məktəbdə sosial fəaliyyət göstərməklə məşğuldur. Direktorun səlahiyyətləri var və heç bir halda kimsə direktora, onun müavininin fəaliyyətinə təsir göstərə bilməz. Eynilə də məktəblinin dostu olan şəxslər. Sadəcə olaraq bəzi məktəblərdə direktorlar vəzifələrinin öhdəsindən normal gələ bilmirlər və bu zaman onların fəaliyyət sahəsinə daxil olan məsələləri ”Məktəblinin dostu” layihəsinin iştirakçıları yerinə yetirir”.

**Şəymən**

# "Nemezis"ə abidə qoyulması göstərir ki, Ermənistan sülh niyyətində deyil



# Dünya səsini çıxarmır

## Ermənistan terrora qucaq açan ölkədir

**Aprelin 25-də Ermənistanın paytaxtı İrəvan şəhərində ”Nemezis” terror əməliyyatına həsr olunmuş abidənin açılışı olub. Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayaraq bu addımı qətiyyətlə pisləyib.**

Vurğulanıb ki, bu abidənin Ermənistanın aidiyyəti dövlət qurumlarının icazəsi və təsdiqi ilə hazırlanması, habelə açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarix boyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır. Bəyanatda, həmçinin deyilib ki, Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı dövlət xadimlərini hədəf alan ”Nemezis” terror təşkilatı Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920-1922-ci illərdə Azərbaycanın baş naziri olmuş Fətəli xan Xoyskini, parlamentin sədr müavini Həsən bəy Ağayevi, daxili işlər naziri Behbud xan Cavanşiri, baş nazir Nəsib bəy Yusifbəylini də qətlə yetiriblər. O da hər kəsə bəllidir ki, Ermənistanda dövlət siyasəti səviyyəsində irəlilədilən terrorçuluq, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək, 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan Azərbaycana qarşı metro və avtobusların partladılması daxil, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədilib, mülki əhali terrorçuların hədəfinə alınıb.

Tarixçi-alim Faiq Ələkbərli ”Şərq”ə açıqlamasında bildirib ki, İrəvanda ”Nemezis” terror təşkilatına abidə qoyulması və rəsmi açılışının keçirilməsi ermənilərin əsl mahiyyətini ortaya qoyur. Alim qeyd edib ki, terror təşkilatları sadəcə bir millət üçün deyil, bütövlükdə bəşəriyyət üçün ciddi təhlükə və bəladır: ”Azərbaycanın və Türkiyənin nüfuzlu dövlət xadimlərinə suiqəsdlər təşkil etmiş, onları terrora məruz qoymuş ”Nemezis”ə abidə qoyulması göstərir ki, Ermənistan sülh niyyətində deyil və normal münasibətlərin qurulmasını istəmir. Ermənistanın terrorçuluğa meyl etməsinə, rəsmi dəstək verməsinə təkcə Azərbaycan və Türkiyə qarşı çıxmalı deyil. Biz onsuz da illərdir erməni terroruna, vandalizminə qarşı mübarizə aparırıq, bundan sonra da aparacağıq. Ancaq dünya da erməni terroruna səs etməlidir. Əks halda erməniləri haqq yoluna gətirmək üçün güc birliyi vacibdir. Azərbaycan və Türkiyə birliyi erməniləri yenidən terrora əl atmaqdan çəkindirir. Ermənistan anlamalıdır ki, ”Nemezis” kimi təşkilatlara rəğbət göstərmək birbaşa ermənilərin öz ziyanınadır. Onların gələcəyi üçün təhlükədir. Bir topluma illər boyu ancaq terror təşkilatını təbliğ edən, terrorçuları ”qəhrəman” kimi təqdim edən dövlətin normal və xoşbəxt gələcəyi ola bilməz. Belə məsələləri daim gündəmdə saxlayaraq öz mövqeyimizi ortaya qoymalı, Ermənistanın terrora qucaq açdığını dünyaya ifşa etməliyik”.

**İsmayıl Qocayev**

# Müharibənin sonu görünmür

## Ukraynanın əks-hücuma başlamaqda çətinlikləri var

**”NATO-nun Ukraynaya dəstəyinin xarakteri və miqyası perspektiv üçün bir sualı aktual edir. Görəsən, rəsmi Kiyev Rusiya işğalına qarşı genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayacaqmı?”.**

Bunu siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, bu, Qərb gələcəkdə Ukraynanın suverenliyi naminə nələri qurban verəcəyindən və qlobal rəqabətdəki dəyişkənliklərdən asılı vəziyyətdə qalmaqdadır:

”Hərçənd, Qərb qlobal sisteminin gələcəyinin Ukraynada sınaqdan keçirildiyi qənaətindədir. Buna görə də NATO genişlənmə siyasətinin uğurlu yekununu istəyirsə, Ukraynaya hərbi dəstək vermək məcburiyyətindədir. Lakin görünür ki, bu ehtiyaclardan da üstün dayanan narahatlıqlar mövcuddur. Məsələ təkcə Rusiyanın nüvə silahı istifadə etmək ehtimalları ilə əlaqəli deyil. Həm də qlobal nüfuz dairəsi mənasında Qərbin maraqlarına hansı strateji zərbələrin vurulacağı ssenariləri ilə bağlıdır. NATO Ukraynaya nəzərəçarpacaq dəstək göstərir və Finlandiyanı öz ailəsinin üzvü edib. İsveç də Alyansa üzvlük üçün növbəsini gözləyir. Lakin bu ”partlayış”lara baxmayaraq, hələ də NATO-da Ukraynaya davamlı dəstəklə bağlı qarışıq düşüncələr mövcuddur. Ən azından, effektiv əks-hücum əməliyyatları üçün lazım olan döyüş təyyarələri və uzaqmənzilli raketlər Ukrayna ordusunun arsenalına təqdim edilmir. Xüsusilə Rusiya ilə Çinin, Rusiya ilə İranın Ukraynadakı müharibə səbəbi ilə Qərbə qarşı eyni müqavimət oxunda birləşməsi NATO-nu ehtiyatlı davranışlara sövq edir.

Qərbdə narahatlıqları artıran səbəblər sırasında Rusiyanın Ukraynada işğal etdiyi əraziləri öz əlində saxlamaq üçün nüvə silahından istifadə etmək ehtimalıdır. Bu, Qərbin Ukraynaya böyük qələbə bəxş etməsində yaranan əngəllərdən biridir. Rusiya özü də nüvə silahından çəkinir. Çünki Kremldə NATO-nun mümkün antinüvə tədbirləri barədə fikirlər mövcuddur”.



*NATO silah tədarükünü genişləndirir, ancaq səhifələr vərəqləndikcə ortaya dəstəyin xarakteri və ölçüləri barədə suallar çıxır*

**A.Kərimovun sözlərinə görə, ümumilikdə nüvə silahı amili və Qərbin qlobal panoramda böyük strateji boşluqlarla qarşılaşma riskləri Ukraynaya qələbə vəd etmir:** ”Ukraynanın əks-hücum əməliyyatlarına hazırlaşması, müharibənin mümkün növbəti raunduna uyğunlaşmaq əsas oyunçuların daha geniş hərbi, siyasi, diplomatik mənzərəni necə oxumasından asılı olacaq. NATO bunun bəzi sətirlərini oxuyur, Ukraynaya silah tədarükünü genişləndirir. Ancaq səhifələr vərəqləndikcə ortaya dəstəyin xarakteri və ölçüləri barədə suallar çıxır. Ukraynanın özü əks-hücum əməliyyatlarına nəzəri olaraq hazırdır. Lakin canlı qüvvə və silah çatışmazlığı rəsmi Kiyevin ritorikasının praktiki göstəricilərini sual altına alır. Bu sualların sayını artıran məqamlardan biri də ABŞ-də Ukrayna ilə bağlı məxfi sənədlərin sızmasıdır. ”Sızma əməliyyatları” ABŞ daxilində Ukraynaya dəstəklə bağlı ikitirəliyin yarandığına işarə verir ki, bu da Ukraynanın mənəvi ruhuna zərbə vurur. Kreml də bundan istifadə edir, ABŞ-nin Rusiyanın planlaşdırma, komandanlıq və nəzarət strukturuna nə qədər dərindən və hansı vasitələrlə baxdığını öyrənib təhlil edir. Bu, Rusiyanın ABŞ-nin Ukraynanı kəşfiyyat məlumatları ilə təmin etməsinə qarşı əks-həmlə qabiliyyətini artıra bilər”.

**İsmayıl**

# "Biz özünü buraxan partiyalardan deyilik"

## Əhməd Oruc: ”5 mindən artıq üzv siyahısını yaxın günlərdə müvafiq quruma təqdim edəcəyik”



**“Siyasi partiyalar haqqında” qanunun qəbulundan xeyli vaxt keçsə də, məsələ müzakirə mövzusudur. Çünki yeni qanun siyasi partiyalar qarşısında yeni tələblər qoyub. Məsələn, partiyanın qeydiyyat proseduru ilə bağlı şərtlər əvvəlkinə nisbətdə kifayət qədər artırılıb. Əvvəlki qanunla siyasi partiyanın qeydiyyatı üçün 1000 üzv bəs edirdisə, yeni qanunla bu tələb 5 dəfə artırılaraq 5 minə çatdırılıb və bunun üçün onlara 6 ay vaxt verilib.**

Partiyaların üzv sayı aşağı olacağı təqdirdə Ədliyyə Nazirliyi partiyaların ləğvi üçün məhkəməyə müraciət edə bilər. Tələblərin artması bir çox partiyaların rəsmi qeydiyyat üçün işlərə start verməsinə səbəb olub. Bəzi kiçik partiyalar isə çıxış yolunu öz fəaliyyətinə xitam verməkdə, yaxud başqa partiyalarla birləşməkdə görür. Mart ayının əvvəlindən başlayaraq partiyalar özünü buraxmağa başlayıb. Deyilənə görə, artıq 15 partiya fəaliyyətinin dayandırılması barədə qərar qəbul edib.

**Hazırlıq prosesi və partiyaların ləğvi məsələsini ”Şərq”ə dəyərləndirən Azadlıq Partiyasının sədri Əhməd Oruc deyib ki, partiya üzvlərinin sayının birdən-birə 5 dəfə artırılması anlaşılmaz idi. Partiya sədri bildirib ki, Azərbaycanda çoxpartiyalı sistem heç nəyə mane olmurdu:** ”Üstəlik, hazırda ölkəmizdə milli birliyə, partiyaların vahid mövqedə çıxış etməsinə ehtiyac olduğu bir dönəmdə belə tələblərin gündəmə gəlməsi qəbuledilməz idi. Bunun nə məqsədlə edildiyi açığı, mənə bəlli deyil. Nəzərə alaq ki, yeni qanunun tələblərindən dolayı özünü buraxan partiyaların bəziləri təzə yaranmış təşkilatlar idi. Demək olar ki, hamısı qeydiyyatdan keçirilmiş və ofislər verilmişdi. Nə baş verdi ki, belə dəyişimə ehtiyac duyuldu? Azadlıq Partiyası hər şeyə rəğmən, qanunauyğun şəkildə üzvlərin siyahısını hazırlamaqla məşğuldur. Respublikanın müxtəlif bölgələrində təmsilçilərimiz bu işlə məşğuldur. 5 mindən artıq üzv siyahısını yaxın dönəmdə müvafiq quruma təqdim edəcəyik. Problem partiyaların təqdim etdikləri siyahının tanınıb-tanınmayacağı ilə bağlıdır. Ancaq bütün hallarda fəaliyyətimizi davam etdiririk. Əgər fəaliyyətimizi ləğv etsələr, məhkəmə yolu ilə hüquqlarımızı müdafiə edəcəyik. Biz özünü buraxan partiyalardan deyilik”.

Ə.Oruc vurğulayıb ki, Azadlıq Partiyası digər siyasi təşkilatlardan çox fərqlidir: ”Azərbaycanda bizim mövqeyi nümayiş etdirən ikinci partiya yoxdur. Biz siyasi proseslər zəminində meydana çıxmış və milli maraqlar uğrunda təşkilatıq. İndi meydandan çəkilməyimiz siyasi fərarilik kimi qiymətləndirilər, haqqımızda olan fikirlər alt-üst olar. Ona görə də fəaliyyətimizi bütün imkanlardan yararlanaraq davam etdirəcəyik. Həm də partiyamızın qeydiyyatdan keçməyi bizə nə verib ki?! Heç nə. Ləğv edilərsə, biz də partiya adından danışmarıq. Keçmiş Azadlıq Partiyasının sədri kimi, vətəndaş kimi danışaram. Çox güman ki, münasibətlər dəyişəndən sonra daha sərt danışacam”.

**İsmayıl Qocayev**

# Mərkəzi Bank banklarda yoxlamalar aparır

## Bununla verilən hesabatların həqiqəti əks etdirib-etdirməməsi araşdırılır




**”Azərbaycan Beynəlxalq Bankı” ASC-nin 2016-cı ildən etibarən yaranmış qısa açıq valyuta mövqeyi problemi cari ilin iyul ayının əvvəllərində Mərkəzi Bankın valyuta satışı hesabına həll edilərək normativ tələbə uyğunlaşdırılıb.**

Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Vurğulanıb ki, bankın likvidlik və valyuta mövqeyi davamlı əsasda nəzarətdə saxlanılır.

AMB həmçinin cari il ərzində nəzarət çərçivəsində bank sektorunun maliyyə dayanıqlılığının diqqətdə saxlandığını açıqlayıb:

”Bank sektorunda kredit riskləri, xarici valyuta bazarında trendlər və dollarlaşma prosesləri mütəmadi izlənib, geosiyasi proseslərin təsiri nəticəsində aktuallığını artırmış hesablaşma kanalları monitorinq edilib, bankların cari maliyyə vəziyyəti qiymətləndirilib. Hesabat dövründə beş bankda, dörd bank olmayan kredit təşkilatında və ”Azərpoçt” MMC-də hərtərəfli yoxlama, habelə dörd bankda tematik yoxlama aparılıb. Nəzarət alətlərinin səmərəli tətbiqi nəticəsində bankların maliyyə dayanıqlılığı qorunub, əhalinin bank sektoruna inamı artıb”.

Yoxlamaları ”Şərq”ə dəyərləndirən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov vurğulayıb ki, Mərkəzi Bank vaxtaşırı bütün bank və qeyri-kredit təşkilatlarında yoxlamalar aparır:

”Bu onun işidir. Çünki Mərkəzi Bank nəzarət orqanıdır. Düzdür, banklar onsuz da hər ay böyük hesabatlarını verirlər.

Yəni distant yoxlama hər zaman var. Amma vaxtaşırı yerində yoxlama aparılır.

Hanısa problemin olması heç də vacib deyil. Sadəcə, verilən hesabatların həqiqəti əks etdirib-etdirməməsi araşdırılır.

Eyni zamanda ola bilər ki, hansısa bankda problem var və yoxlanış üçün gedir. Yəni bu, tamamilə normal iş qaydasıdır”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Azərbaycan ciddi islahatlar aparır

## İqtisadiyyatda özəl müəssisələrin payının genişlənməsi müşahidə olunur



**Müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların uğurla həyata keçirilməsinə etibarlı zəmin yaradıb. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyən Ulu Öndər digər sahələrdə olduğu kimi, sahibkarlığın da formalaşması və inkişafı ilə bağlı taleyüklü qərarlar qəbul edib, dahi şəxsiyyətin rəhbərliyi ilə bu sahəni tənzimləyən qanunvericilik bazasının yaradılması istiqamətində mühüm işlər görülüb.**

Ümummilli Liderin inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müdriklik və böyük uzaqgörənliklə davam etdirilməsi nəticəsində bu gün ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilib. Aparılan islahatlar çərçivəsində Azərbaycan Prezidentinin "ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq son illərdə sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən sistemli tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, şəffaf inzibati tənzimləmə və dövlət dəstəyi mexanizmlərinin yaradılması və genişləndirilməsi, sahibkarların hüquqlarının və qanuni mənafelərinin etibarlı müdafiəsi və digər tədbirlər nəticəsində bu gün sahibkarlar iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib.

Prezident İlham Əliyev sahibkarlarla keçirdiyi görüşlərində sahibkarlığın inkişafının ölkə üçün prioritet məsələlərdən biri olduğunu vurğulayır. Dövlətimizin başçısı bəyan edir ki, sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir.

Son illərdə sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılıb.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, Azərbaycanda liberal iqtisadiyyatın formalaşması, azad sahibkarlığın daha yaxından dəstəklənməsi prioritet məsələdir. Bununla bağlı 2022-2026-cı illəri əhatə edən strategiyada xüsusi prinsiplər var:** "Ölkəmizdə gizli iqtisadiyyata qarşı mübarizənin gücləndirilməsi iqtisadiyyatın liberallaşmasına xüsusi töhfə verir. Bu da təbii ki, rəqabətin güclənməsi, azad iqtisadi sistemin genişləndirilməsi baxımından vacib hesab olunur. Digər tərəfdən də liberal iqtisadiyyatın inkişafı özəl sektorların payının artmasında özünü göstərir".

Millət vəkilinin sözlərinə görə, ölkə başçısı tərəfindən təsdiq olunmuş "2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"də də gizli iqtisadiyyatın məhdudlaşdırılması, eyni zamanda liberal iqtisadiyyatın genişləndirilməsi əsas prioritetlərdən biridir: "Bu baxımdan növbəti dövrlərdə də bu istiqamətdə islahatların davam etdiriləcəyi gözlənilir. Artıq bu istiqamətdə Azərbaycan ciddi islahatlar aparır. Həm ümumi məsələlərin sayında özəl sektorun payının artmasını, həm də bütövlükdə iqtisadiyyatda özəl müəssisələrin genişlənməsini müşahidə edirik. Bütün bunlar azad sahibkarlıq və liberal iqtisadiyyatın inkişafında xüsusi rol oynayır. Bu baxımdan biz 2018-ci ildən azad sahibkarlıq və liberal iqtisadiyyatın inkişafını və bu istiqamətdə fəaliyyətlərin genişləndirilməsini müşahidə edirik. Bu, iqtisadi vəziyyətin dayanıqlılığı baxımından vacibdir. Çünki yeni strategiyada inklüziv inkişaf prioritet məsələlərdəndir".

Azad sahibkarlığın inkişafı ilə bağlı ölkədəki vəziyyəti dəyərləndirən **iqtisadçı-ekspert Eyyub Kərimli isə deyib ki, ölkədə sahibkarlığın inkişafı ilə bağlı dövlət tərəfindən böyük proqramlar həyata keçirilib.** Bu həm sahibkarlar üçün güzəştli kreditlərin, vergi güzəştlərinin həyata keçirilməsi, həm də böyük məbləğdə müvafiq güzəştli kreditlərin təqdim edilməsi üçün şərait yaradıb.

***Bütün bunlar azad sahibkarlıq və liberal iqtisadiyyatın inkişafında xüsusi rol oynayır***

Eyni zamanda sahibkarlar üçün qanunvericilik və vergi bazasının təkmilləşdirilməsi və qanunvericilik islahatları da həyata keçirilib:

"Bu gün ölkənin maliyyə bank sistemində böyük inkişaf var və dövlət tərəfindən həm güzəştli subsidiyalar, həm güzəştli kreditlər sahibkarlara təqdim olunub. Buna baxmayaraq, ölkədə sahibkarlığın inkişafında müəyyən problemlər hələ də qalmaqdadır. Bunlardan biri ölkədə inhisarçılığın təsiridir ki, bəzən orta və kiçik sahibkarlığın fəaliyyətinə böyük maneə törədir. Həmçinin rəqabət imkanlarının məhdudlaşdırılması, Rəqabət Məcəlləsinin qəbul edilməməsi də bu problemlərdən biridir. Bu gün liberal iqtisadi münasibətlərdə əsas problemlərdən biri həm də monopoliyaların təsiridir ki, burada yerli sahibkarların və ya orta kiçik sahibkarların fəaliyyətinə müəyyən problem yaradır. Həmçinin idxal-ixrac məsələlərində gömrükdə olan inzibati və süni yaradılan problemlər də sahibkarlığın fəaliyyətinə mənfi təsir edən amillərdən biridir".

**Ekspertin fikrincə, azad sahibkarlığın inkişafı üçün həm də liberal iqtisadi münasibətlərin daha da səmərəliləşdirilməsi, digər tərəfdən, qanunvericilik bazasının, məhkəmə hüquq bazasının təkmilləşdirilməsi qanunların daha təkmil işləməsi və təsirinin artırılmasına böyük ehtiyac var:** "Həmçinin dövlət tərəfindən kiçik və orta sahibkarlığın inkişafına daha geniş şəraitin yaradılması və bu yöndə vergi güzəştlərinin tətbiq edilməsi, həmçinin bəzi icazələrin ləğv edilməsi və ya rüsumların azaldılması lazımdır. Əlavə olaraq deyim ki, bizdə bəzən sahibkarlara təqdim edilən cərimələrin də miqdarı çox böyük olur. Bu da sahibkarlığın fəaliyyətinə çox böyük maneə törədən amillərdən biridir. Hesab edirəm ki, həmin cərimələrin də azaldılmasının sahibkarlığın inkişafına müsbət təsiri ola bilər".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Vaşinqton narahatdır

## ABŞ Pekinin Rusiyanı sanksiyalardan qurtarmağa çalışdığını müşahidə edir

**ABŞ Konqresinin bir qrup ermənipərəst konqresmeni yenə fəallaşıb. Konqresmenlər Azərbaycanın Ermənistanla sərhədlərini nəzarət altına almasına qarşı bəyanatlarla çıxış ediblər. Ekspertlərin fikrincə, ABŞ Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları nəzarət altında saxlamağa çalışır.**

Vaşinqton hesab edir ki, Rusiyaya qonşu olan bir qisim ölkə sanksiyaları nəzərə almır. Bu baxımdan ABŞ-nin maliyyə nazirinin müavini Elizabet Rozenberqin Mərkəzi Asiya ölkələrinə səfəri diqqət mərkəzindədir. Rozenberq keçirdiyi görüşlərdə Mərkəzi Asiya ölkələrini Rusiyanın sanksiya altında olan şirkətləriylə əməkdaşlıqdan çəkindirməyə çalışır.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu xatırladıb ki, bundan əvvəl Mərkəzi Asiya ölkələrinə dövlət katibi Entoni Blinken və digər amerikalı rəsmilər də səfər ediblər. Onlar da həmin dövlətləri Rusiyanın sanksiya altında olan şirkətləri ilə əməkdaşlıqdan imtinaya çağırıblar: "Avropa İttifaqının nümayəndələrinin də Mərkəzi Asiya ölkələrinə səfərləri qeydə alınıb. ABŞ və Avropa İttifaqı bir sıra dövlətlərə seçim təklif edib: - Ya dünya iqtisadiyyatı çərçivəsində əməkdaşlığa davam etmək, ya da Rusiyaya maddi dəstək qarşılığında məhrumiyyətlərlə üzləşmək. Vaşinqton və Brüsseldə hesab edirlər ki, bir qisim dövlətin Rusiya ilə idxal-ixrac əməliyyatları artıb. Bu da Vaşinqton və Brüsseldə şübhə yaradıb ki, həmin dövlətlər ABŞ və Avropadan aldıqları məhsulları sonradan Rusiyaya satırlar. ABŞ Maliyyə Nazirliyinin siyahısında şübhəli 18 dövlətin adı çəkilib. Bunların içərisində Mərkəzi Asiya ölkələri ilə yanaşı, Ermənistan da yer alıb. Ermənistanın son aylarda Rusiyaya ixracı xeyli dərəcədə artıb. Bu, Qərbdə şübhələr yaradıb ki, Ermənistan Kremlin istəyi ilə Qərb ölkələrindən aldığı məhsulları Rusiyaya ötürür. Mexanizm belədir: Rusiyanın sanksiya altında olan şirkətləri lazımi avadanlıqları əldə etmək üçün Ermənistan banklarına pul köçürür. Həmin pulla Ermənistan Qərbdən gərəkli avadanlıqları alaraq Rusiyaya ötürür. Ermənistandan fərqli olaraq Qazaxıstan Rusiya ilə idxal-ixrac əməliyyatlarında ehtiyatlı mövqeyə üstünlük verməyə çalışır. Təsadüfi deyil ki, Astana bir müddət əvvəl Moskvadakı ticarət nümayəndəliyini qapadıb".

**Analitik vurğulayıb ki, Vaşinqton Pekinin də Rusiyanı sanksiyalardan qurtarmağa çalışdığını müşahidə edir:** "Çinin nəhəng şirkətləri Qərb sanksiyalarıyla hesablaşaraq Rusiya ilə ticarətə diqqət yetirirlər. Çünki Çinin həmin şirkətləri Qərbin sanksiyaları ilə üzləşmək istəmirlər. Bu halda həmin şirkətlər ABŞ və Avropa bazarını itirə bilərlər. Buna baxmayaraq, rəsmi Pekinin regional siyasəti Rusiyanın xeyrinədir və Kreml bu yolla sanksiyalardan qurtulmağa çalışır. Məsələn, Pekinin Səudiyyə Ərəbistanı ilə İranı barışdırması Moskvanın işinə yarayıb. Pekin Körfəz ölkələriylə sıx əlaqələr qurmaqla ABŞ-nin bu bölgəyə təsirini azaltmağa çalışır. Belə olan halda Körfəz ölkələri həm İran, həm də Rusiya ilə əlaqələr qurmağa başlayırlar. Səudiyyə Ərəbistanı martın ilk 10 günündə Rusiyadan 2.5 milyon ton dizel yanacağı alıb. Vaşinqtonda şübhələnirlər ki, Səudiyyə Ərəbistanı Rusiyadan aldığı nefti emal etdikdən sonra müxtəlif ölkələrə satır. Bu səbəbdən Vaşinqton Ər-Riyadla dialoqu genişləndirib. Pekinin vasitəçilik təşəbbüsləri və Körfəz ölkələrinin İranla dialoqu Vaşinqtonda narahatlıq doğurub".

**İsmayıl**

# Bakı sürüşmə zonasında yerləşir

## Türkiyədə baş vermiş zəlzələ hər kəsi bir daha düşündürməlidir



***Dünya alimləri seysmik məsələlərin müzakirəsi üçün Bakıda toplaşıblar***

**Bakıda Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin dəstəyi ilə "Seysmik Dayanıqlı Müasir Qurğular" (AERS-2023) Beynəlxalq Konqresi öz işinə başlayıb.**

Konqresin plenar iclasında Azərbaycandan olan elm adamları, istehsalat nümayəndələri ilə yanaşı, Türkiyə, Amerika Birləşmiş Ştatları, Yaponiya, Kanada, İtaliya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Portuqaliya, Hindistan, Yunanıstan və digər ölkələrdən nüfuzlu alimlər iştirak ediblər.

AERS-2023-ün məqsədi zəlzələ mühəndisliyinin əsas hədəfləri istiqamətində aparılan tədqiqatlar haqqında hərtərəfli təsəvvürün əldə olunması, qurğuların seysmik həssaslıq dərəcəsinin azaldılması, mövcud inşaat norma və qaydalarında zəlzələ mühəndisliyinin əsas hədəflərindən olan üç dizayn amilinin hər birinə diqqətin artırılması, gələcək zəlzələlərin təsirinin qarşısının alınmasında müasir yeni qurğu sistemlərindən istifadəyə çağırış və bu kimi aktual məsələlərdən ibarət olub.

AzMİU-nun rektoru, Konqresin fəxri sədri professor Gülçöhrə Məmmədova mövzunun aktuallığına diqqət çəkib. Rektor Türkiyədə çoxsaylı insan tələfatı ilə nəticələnən zəlzələni əsrin fəlakəti adlandıraraq dünya elminin və inşaat sektorunun yeni, həmçinin mühüm çağırışlarla üz-üzə olduğunu qeyd edib.

Professor Ulu Öndər Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra nəticələrini aradan qaldırmaqdan daha asandır" fikrini sitat gətirərək seysmoloji araşdırmalarda yeni və dərinləşdirilmiş yanaşmanın, mütərəqqi texnologiyanın tətbiqi ilə risklərin müəyyən edilməsinin vacibliyini vurğulayıb.

AzMİU-nun ölkəmizin yüz illik inşaat mühəndisliyi ali təhsil ənənəsini özündə birləşdirdiyini, universitetdə bu istiqamətdə yüksəkixtisaslı mühəndis kadrların yetişdirildiyini, bina və qurğuların inşası üzrə seysmoloji məsələlərin dərindən araşdırıldığını qeyd edən rektor Konqresin universitet alimləri üçün yeni üfüqlər yaradacağına, ölkəmizə və dünyaya böyük faydalar qazandıracağına əminliyini ifadə edib.

Tokio Texnologiya İnstitutunun fəxri professoru, Yaponiya Seysmik İzolyasiya Cəmiyyətinin prezidenti Akira Vada "Seysmik izolyasiya yastıqları və sönüm cihazları üçün yeni yüksək performanslı dinamik sınaq təsisi" adlı elmi məruzə ilə çıxış edib. Alim zəlzələ zamanı seysmik izolyasiya yastıqlarının əhəmiyyəti, Yaponiyanın bu istiqamətdəki təcrübələri və elmi-praktik perspektivlər haqqında geniş məlumat verib.

ABŞ-nin Arizona Universitetinin professoru Tribikram Kundu "Qeyri-dağıdıcı sınaq və struktur sağlamlığa nəzarət texnologiyasında son nailiyyətlər" adlı məruzəsində bina və qurğuların sınaq yolu ilə seysmik davamlılığının yoxlanılması üzrə ən son elmi-texnoloji araşdırmalardan danışıb.

Konqresin sədri, AzMİU-nun professoru, Zəlzələ Mühəndisliyi Elmi-Tədqiqat Mərkəzinin direktoru Azər Qasımzadə isə "Yeni struktur seysmik izolyasiya sistemi" mövzularında məruzə ilə çıxış edib. Alim seysmik izolyasiya üzrə yeni yanaşmanın vacibliyinə diqqət çəkib və bu istiqamətdə apardığı elmi araşdırmalar haqqında məlumat verib.

Konqresdə çıxış edən fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev Türkiyədə baş verən zəlzələdən dərs çıxarmağın vacibliyinə toxunub. Onun sözlərinə görə, ölkəmizdə zəlzələyə qarşı qabaqlayıcı tədbirlərin görülməsi və monitorinqlərin keçirilməsi lazımdır: "Çünki zəlzələdən heç bir dövlət sığortalanmayıb. Türkiyədə bir neçə saniyəyə 50 mindən çox insan həlak oldu. Bu, hadisənin dəhşətindən xəbər verir. Təkcə FHN-in xilasedeciləri 53 insanı dağıntılar altından xilas edib".

"Zəlzələdən qorunmaq üçün hər bir binaya individual yanaşmaq lazımdır".

Bu sözləri isə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib. O, fevralın 6-da Türkiyədə baş vermiş zəlzələnin hər kəsi bir daha düşünməyə məcbur etdiyini vurğulayıb. Bakının sürüşmə zonasında yerləşdiyini xatırladan baş direktor söyləyib ki, buna görə də inşa edilən binalar təhlükəsiz və zəlzələyə davamlı olmalıdır.

**Şəymən**



## "Eldar müəllim mənim yaxın dostum olub"

Cəmil Quliyev "Girov" filmi haqqında fikir bildirməkdən imtina edib

**"Eldar müəllim mənim yaxın dostum olub. Onun filmi barədə nə deyə bilərəm? Bu, etik baxımdan doğru olmaz".**

Bu sözləri "Şərq"ə açıqlamasında Azərbaycan Dövlət Film Fondunun direktoru, kinorejissor, Əməkdar incəsənət xadimi Cəmil Quliyev deyib. Cəmil Quliyev mərhum kinorejissor Eldar Quliyevin bu günlər sərt tənqidə məruz qalan "Girov" filmi haqqında fikir bildirməkdən imtina edib. Bunu etikadan kənar hesab edən Fond direktoru, qısaca, "normal filmdir. Bu, rejissor yanaşmasıdır. 15 il əvvəl çəkilmiş film haqqında indi danışılmasını doğru hesab etmirəm".

*Qeyd edək ki, yazıçı-dramaturq Seyran Səxavət "Şərq"ə açıqlamasında "Girov" filminin nəinki Azərbaycan Dövlət Film Fondundan xaric edilməsini, ümumiyyətlə, bu filmdən imtinanı təklif edib.*

**Məlahət**

## Əməkdar artist Bakı meriyasını məhkəməyə verdi





**Bakı Şəhər İcra Hakimiyyəti məhkəməyə verilib.**

Qaynarinfo xəbər verir ki, iddiaçı İmanov Tahir Qorxmaz oğludur.

İş Bakı İnzibati Məhkəməsindədir. Artıq iş üzrə hakim təyin edilib. İmanov Tahir Qorxmaz oğlunun iddiasına hakim Nəriman Abıyevin sədrliyi ilə baxılacaq. İşin mahiyyəti torpaq münasibətləri üzrə mübahisələrdən ibarətdir.

Tahir İmanov "Planet Parni iz Baku" KVN teatrının bədii rəhbəri, Əməkdar artistdir.

Məlumatı dəqiqləşdirmək üçün Əməkdar artistlə əlaqə saxladıq. Tahir İmanov bu barədə danışmaq istəmədiyini bildirdi: "Mənə sənətimlə bağlı suallar verin".

# Hər ərzaq təhsil ocaqlarına yol aça bilməz

## Məktəblərdə qida zəhərlənmələrinin qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir



**Elm və təhsil naziri Emin Əmrullayev son zamanlarda məktəblərdə baş verən zəhərlənmə hallarına münasibət bildirib. Bu barədə jurnalistlərə açıqlama verən nazir heç bir məktəbin belə hallardan sığortalanmadığını deyib: "Çalışırıq ki, hər bir hadisəni müvafiq olaraq təhlil edək və gələcəkdə təkrarlanmasının qarşısını alaq.**

Son zamanlarda təhsil müəssisələrində qidalanma ilə baş verən xoşagəlməz halların Elm və Təhsil Nazirliyinə müəyyən qədər aidiyyəti var. Son baş verən hadisələrin biri qida zəhərlənməsi, digəri isə toksikoloji haldır. Qida məsələsi məktəblərdə iki yolla tənzimlənir. Bunlardan biri bufetlərdir. Bura özəl sektorların birgə fəaliyyəti əsasında qurulur. Onlar da aidiyyəti dövlət qurumlarının nəzarəti altında olur. Məsuliyyət nəzarət altına alınmaqla müəyyən edilmiş siyahıya uyğun müvafiq qidaların məktəbdə satışını təmin edirlər. İkinci model isə daha çox internat tipli məktəblərdədir. Burada uşaqlara gündə 4 dəfə verilən qidalar pulsuzdur. Biz əsasən uşaqlara verilən qidaların keyfiyyətli olmasına nəzarət edirik. Sanitar, gigiyenik qaydalara nəzarət müvafiq quruma aiddir. Bu il bir dəfə zəhərlənmə halı baş verdi və həmin məsələ araşdırılır. Müvafiq qaydada tədbirlər görülür". Nazir deyib ki, Azərbaycanda həm xüsusi mühafizə olunan, eyni zamanda polis tərəfindən mühafizə edilən məktəblər var, həm də bütün məktəblərdə ən azı həyəcan düyməsi yerləşdirilib: "Bu istiqamətdə müvafiq təlimlər də keçirilir. Məktəblərin təhlükəsizliyi baxımından ən uğurlu layihəmiz "Məktəblinin dostu"dur. Artıq yüzdən çox məktəbdə bu layihə icra olunur. Bundan əvvəl məktəbdə zəhərlənmə halı baş verdikdə ilk müdaxiləni məktəb rəhbərliyi ilə yanaşı "Məktəblinin dostu" etmişdi. Bu layihənin əhatə dairəsinin genişləndirilməsinin tərəfdarıyıq. Nəzərə almaq lazımdır ki, ölkədə bir milyona yaxın şagird təhsil alır. Məktəblərdə xoşagəlməz hallardan sığortalanmamışıq. Bu yolla gələcəkdə bu kimi halların qarşısını almaq üçün necə addımlar atmalı olduğumuzu biləri rik". Həmçinin Nazirliyin açıqlamasında qeyd olunur ki, 2022-2023-cü illər ərzində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən qida məhsullarının minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinin, o cümlədən qidalanmanın təşkili səviyyəsinin yoxlanılması məqsədilə qida bloku ilə təmin olunmuş 174 ümumi təhsil müəssisəsində yoxlama həyata keçirilib, nöqsanlara yol verən şəxslər barədə qanunamüvafiq tədbirlər görülüb. Qeyd olunan məsələ ilə əlaqədar Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq araşdırma aparılıb, nöqsanlara yol verən 6 ümumi təhsil müəssisəsinin rəhbərinə Əmək Məcəlləsinə əsasən töhmət verilib, 168 ümumi təhsil müəssisəsinin rəhbərinə isə xəbərdarlıq edilib.

**Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirdi ki, orta ümumtəhsil məktəblərində qida zəhərlənmələrinin qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir:**

- Hesab edirəm ki, təcrübəsiz mmc-lərin, özəl sektor təmsilçilərinin məktəb kimi ciddi məkanlara ərzaq paylamalarına icazə verilməməlidir. Məktəblərə hansı şirkətin, mmc-nin ərzaq, qida payladığı araşdırılmalı, bu sahədə təcrübəsi olanlar məktəbə cəlb edilməlidir. Məktəb tədrislə yanaşı, həm də uşaqların təhlükəsizliyinin təminatına cavabdehlik daşıyır. Ərzaq, qida təminatı kimi ciddi bir işə səhlənkar yanaşmaq, etibarlığı təsdiqlənməmiş şirkətlərlə əməkdaşlıq etmək olmaz. Nazirlər Kabinetinin ümumtəhsil məktəblərində icazə verilən və qadağan olunan ərzaqlarla bağlı məlum qərarı var. Hansı ərzaqlar məktəbə yol tapmamalıdır, bu haqda məlum qərarda açıq qeyd edilib. Məsələn, hisə verilmiş qidalar, spirtli, qazlı içkilər, çipslər, evdə bişirilmiş qidaların məktəb bufetində satılması qadağandır. Amma görürük ki, bufetçilər evdə hazırladıqları hazır qidaları məktəb bufetində satışa çıxarır. Nəzarət yoxdur deyə, belə hallar baş verir. Elm və Təhsil Nazirliyi məktəb bufetlərinə nəzarəti gücləndirməli, məktəbə gətirilən ərzağın keyfiyyəti dəqiq yoxlanmalıdır. Şagird məktəbə özüylə qida gətirə bilər, buna onun hüququ var. Amma valideynlər də bu məsələdə diqqətli olmalı, yağlı, kimyəvi qatqısı olan ərzaqları nahar yeməyi kimi şagirdin çantasına qoymamalıdır. Valideynlər də səhvlərə yol verir. Uşağa gündəlik xərclik verir, "nə istəyirsən, al, ye", deyir, uşaq da sevdiyi qidanı alır. Paketlənmiş hazır qidalar, qazlı, rəngli içkilər, çipslər, quru vermişel, suxarilər bu gün məktəblilərin əksəriyyətinin yediyi qidadır. Bu, qətiyyən düzgün deyil. Zərərli qidalarla bağlı məktəblərdə maarifləndirmə aparılmalıdır. Evdə də valideynlər övladlarına bu cür qidaların zərərli olduğunu başa salmalıdır. Amma bunu edənlər azdır. Məktəblərin önündəki köşklərdə hər cür zərərli qida satılır. Şagirdlər də alıb yeyirlər. Belə hallar aradan qaldırılmalıdır.

**Məlahət Rzayeva**



## 3 saylı tam orta məktəbdə "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirilib

**2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil müəssisələrində keçirilən tədbirlər davam edir.**

Bakı şəhəri Binəqədi rayonu R.Əliyev adına 3 saylı tam orta məktəb də bu siyahıya aiddir. Məktəbin tarix müəllimi Nigar Məmmədova və Xb sinif şagirdləri "Ulu Öndərin yolu ilə" şüarı altında aylıq plana uyğun olaraq ardıcıl tədbirlər keçirirlər.

İlin ilk tədbiri 19.01.2023-cü il tarixində keçirilib, aylıq plana uyğun olaraq görüləcək işlər barədə məlumat verilib, şagirdlər arasında iş bölgüsü aparılıb.

20.02.2023-cü il tarixində 3 nömrəli tam orta məktəbin tarix müəllimi Nigar Məmmədova və Xb sinif şagirdlərinin iştirakı ilə Ümummilli Liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti haqqında konfrans keçirilib.

Üçüncü aylıq plana uyğun olaraq 27.03.2023-cü il tarixində növbəti konfrans keçirilib. Azərbaycanın böyük oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə, adət-ənənələrinə göstərdiyi diqqət və qayğıdan söhbət açılıb.

Keçirilən tədbirlərin dördüncüsü 20.04.2023-cü il tarixinə aiddir. Sözügedən tarixdə "Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu kimi" mövzusunda konfrans keçirilib. Xb sinif şagirdlərinin iştirakı ilə Heydər Əliyevin prezidentlik dövründə gördüyü işlər, atdığı əhəmiyyətli addımlar barəsində müzakirələr aparılıb. Nigar Məmmədova Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının qurucusu kimi millətinə, dövlətinə göstərdiyi yüksək səviyyəli xidmətlərini xatırladaraq, saymaqla bitməyən faydaları haqqında konfrans iştirakçılarına maraqlı faktlar əsasında məlumatlar verərək müzakirələr aparıblar. Şagirdlər öz növbəsində Ümummilli Lider Heydər Əliyev haqqında əldə etdikləri bilgiləri təqdim ediblər.

Xb sinif şagirdlərinin iştirakı ilə keçirilən konfransda məktəb rəhbərliyi, fənn müəllimləri və digər sinif şagirdləri də iştirak ediblər.

# Rəqsanədən Təranəyə tərs şillə!

## "Mən "yıxılanda" başqa hərəkət etməmişəm"

**"Təranə həbs olunduqdan sonra uşaqları Kəmalə Ağazadənin sığınacağına yerləşdirdim. Dedim ki, heç olmasa, həftədə bir dəfə uşaqları görüm. Bir həftədən sonra evimə gəldilər, onun üçün də ərizə yazmışdım. Böyük qızı getmək istəmədi, dedi, xahiş edirəm, sizdə qalım. Mən anayam, övladlarım var. Pis oldum, uşaqları vermədim".**

"Şərq" xəbər verir ki, bu sözləri müğənni Rəqsanə İsmayılova "Həmin Zaur" verilişində həbsdə olan prodüser Təranə Səmədovanın övladları haqqında deyib.

O bildirib ki, hazırda Təranənin uşaqları onun yanında qalır: "Dövlət qurumlarına da məlumat verdim ki, qız getmək istəmir, ağlayır. Onu necə məcbur edə bilərəm? 14 yaşı var, danışığını bilir, maşallah, savadlı uşaqdır. Nazirlikdən, Xətai Rayon İcra Hakimiyyətindən nümayəndələr və Kəmalə xanımın özü gəldi.



Uşaq özü yazdı ki, xahiş edirəm, balaca bacımla burada qalaq. Uşağa da Suel baxıb. O körpə onu özünə ana bilir, elə bağlanıb. Bizim illərdir aramızda nələr baş verib. Onunla danışmamağıma baxmayaraq, onun övladlarını sinəmə çəkmişəm.

Rusiyadan dayələr gətirmişəm ki, buradadılar. O uşaqlara da eynilə mənim övladlarım kimi baxırlar. Hələlik mənimlə qalırlar. Mən özbaşıma uşaqları gətirməmişəm. Gördüm ki, uşaqlar ortada qalıblar, həyat yoldaşımdan xahiş etdim, uşaqları sinəmə çəkdim. Onların maddi və mənəvi hər öhdəlikləri mənim üstümdədir.

Uşaq məktəbə öz istəyi ilə dedi ki, bir müddət getmək istəmirəm, mənə vaxt verin. Allah bütün xanımlarımıza dayaq olsun. Heç bir qadını sınağa çəkməsin. Mən həyatda çox yıxılmışam, qalxmağı bacarmışam. Yıxıldıqca başqa hərəkətlər etməmişəm.

Təranə mənim yanımda olsaydı, yıxılmazdı. Həyatdır, bu da bir sınaqdır.

Allah onu hər zaman balalarının üstündə etsin. Harada olmağından asılı olmayaraq. Siz hamınız savadlı insanlarsınız, bilirsiniz ki, kiminsə uşağını zorla evimə gətirə bilmərəm.

Uşaqlar icazəsiz mənim yanımda qalmırlar. Artıq 3 aydır, kim onu yoxlamaq istədi, dedim getmə. Ya da o uşaqlara kimsə bir kilo nəsə alıb, gətirdi, dedim, gətirmə?! Onların evləri var. Onu təmir etdirməyə başlayarıq. Üç il sonra qızının 18 yaşı olacaq. Özü də idmançıdır, savadlı qızdır. Düşmənim belə olsa, ona yaxşılıq edərəm. Nə edirəmsə, sabahım üçün edirəm".

**Samirə Ərəblinskaya**



## Nə dura, nə gəzə, nə də fərli danışa bilir

Ağakərimin vəziyyətində bir dəyişiklik yoxdur

**Uzun illərdir, səhhətindəki problemlərlə mübarizə aparan meyxanaçı Kərim Novruzovdan (Ağakərim) xəbər var. Bu barədə "Şərq"ə onun yaxın dostu, həmkarı Ağamirzə Məmmədov danışıb.**

*Söz ustadı deyib ki, Ağakərimin vəziyyətində bir dəyişiklik yoxdur:* "Vəziyyəti olduğu kimidir. Nə dura, nə gəzə, nə də fərli danışa bilir. Çox vaxt danışmır. Danışanda da başa düşmək olmur. Pisə doğru irəliləyiş var ki, yaxşılığa doğru yox. Həkimlər də deyirlər ki, belə qalsa, yaxşıdır. Çarə yoxdur. Hərdən gedirəm.

Bir-iki dəqiqə yanında oluram. Deyirəm, Kərim, necəsən? Heç nə demir, eləcə baxır. Danışmaq yoxdur. Mən də pis oluram. Arada danışmağa çalışır.

Allah Birinci vitse-prezident Mehriban xanım Əliyevaya can sağlığı versin, ömrünü uzun etsin. Birinci xanım göstəriş verib. Nə vaxt lazım olsa, Mərkəzi Klinika Kərimin qulluğundadır. Lakin oralıq bir şey yoxdur. Ancaq müalicə olunur".

*Qeyd edək ki, meyxanaçının beyninə 2017-ci ildə qan sızıb. Sənətçi 2021-ci ildə yenidən insult keçirib.*

**Samirə Ərəblinskaya**

**Elan**

"Azəri İmport" MMC-yə (VÖEN 1200196691) məxsus 2022-ci ilin noyabr və dekabr aylarının xərc sənədləri naməlum şəraitdə itib. Sənədləri tapıb bizə təqdim edən şəxsi mükafat gözləyir. Əlaqə nömrəsi +99455 748-79-99

## Təkrar hərracın keçirilməsinə dair elan

Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinin Ləgvetmə komissiyasının 14.03.2023-cü il tarixli, 14/03/2023 saylı sifarişi ilə Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinə məxsus aşağıdakı rəsm əsərlərinə dair 25 aprel 2023-cü il tarixinə, saat 10:00-a təyin edilmiş hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmamış, bununla əlaqədar olraraq təkrar hərrac 12 may 2023-cüil tarixinə, saat 10:00-a təyin edimişdir.

| S/S | Rəsm əsəri | Rəssamın adı | Ölçü | Hərrac dəyəri | Behin məbləği |
|---|---|---|---|---|---|
| 1 | Şəkil " Bakı" | Həsən Daşdəmir | 60x82 | 1.080 | 54 |
| 2 | Şəkil "Hind Motivi" | M.Abdullayev | | 774 | 39 |
| 3 | Şəkil "Köhnəməscid" | Anar Hüseynzadə | 60x48.5 | 315 | 16 |
| 4 | Şəkil "Kəndimiz" | A.Mirzəyev | 60x80 | 450 | 23 |
| 5 | Şəkil "EtyudPambıqçı" | Böyükağa Mirzəyev | 28x18 | 720 | 36 |
| 6 | Şəkil "Qızqalası" | Təbriz Abdullayev | 55x118 | 1.530 | 77 |
| 7 | Şəkil "Bakı" | Sübhan Məmmədov | 80x120 | 1.350 | 68 |
| 8 | "Mənzərə" | Eyyub Məmmədov | 25.5x34 | 315 | 16 |
| | | | Cəmi: | 6.534 | 329 |

**İlkin hərracda iştirak üçün satış qiymətinin 5%-i məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.**

**Hərrac addımı - elan edilmiş qiymətin ən azı 1 %-i qədər olmalıdır.**

**QEYD: Əlavə məlumat almaq üçün "Əmlak Hərrac Mərkəzi" MMC və sifarişçinin əlaqə telefonları ilə əlaqə saxlaya bilərsiniz.**

**Tel: (+99450) 210-66-47; Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1044



## Harri ilə Meqan matçı izlədilər

**Minlərlə tamaşaçı cütlüyü alqışlayaraq onlardan öpüşməyi tələb ediblər**

**Britaniya kral ailəsindən ayrılaraq ABŞ-də məskunlaşan şahzadə Harri və həyat yoldaşı Meqan Markl bu dəfə NBA komandalarından olan "Los-Anceles Lakers"in matçında diqqət mərkəzində olublar.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Harri ilə Meqan zalın yuxarısında quraşdırılan və matç zamanı izləyicilərə fokuslanaraq, monitorda aşkar etdikləri cütlüklərin öpüşmə anlarını əks etdirən "Kiss Cam"a yaxalanıblar.

Belə ki, Harri ilə Meqanı görən minlərlə tamaşaçı qəfildən cütlüyü alqışlamağa başlayıb və onlardan öpüşməyi tələb ediblər.Alqışların ardından Harrinin əyilərək həyat yoldaşını öpməyə çalışdığı, Meqanın isə əli ilə ərini nəzakətlə itələyərək öpüşməkdən imtina etdiyi anlar sosial şəbəkədə izləyicilər tərəfindən paylaşılıb.

**Nihat Müzəffər**

## İranda hicabsız qadınlara xidmət edən obyektlər bağlandı



**İranın paytaxtı Tehranda hicabsız şəxslərə xidmət göstərən bir neçə obyektə xəbərdarlıq edilib.**

Bakupost.az xəbər verir ki, bu xəbərdarlıqlara diqqət göstərməyən bir sıra obyektlər və ticarət şəbəkəsi bağlanıb.

Bağlanılan obyektlərin əksəriyyəti kafe və restoranlardır. Həmçinin, 3 aptek də bağlanılanlar arasında yer alıb.

Şəhərin qərbində yerləşən bir ticarət mərkəzinin bağlanması isə daha çox diqqət çəkib.

Qeyd edək ki, bağlanan kafe və restoranların çoxunun məşhurlara aid olması sosial media istifadəçilərinin reaksiyasına səbəb olub. İstifadəçilər, obyekt sahiblərinin Məhsa Əminin ölümündən sonraki aksiyalara dəstək verdiyini deyib. Obyektlərinin də bu səbəbdən bağlanması bildirilib.

## "Barbi" tarixində ilk dəfə



**Amerikanın oyuncaq şirkəti "Mattel" Milli Daun Sindromu Cəmiyyəti ("NDSS") ilə birgə ilk daun sindromlu "Barbi" gəlinciyini təqdim edib.**

Oyuncaq 2009-cu ilə məxsus "Fashionista" kolleksiyasının bir hissəsi kimi yaradılıb. Bildirilib ki, seriyanın hazırlanmasında məqsəd uşaqları özləri kimi olmayan gəlinciklərlə oynamağa təşviq etməkdir.

Kolleksiyaya protez ayaqlı, eşitmə cihazından istifadə edən, əlil arabasında olan gəlinciklər də daxildir.

## Brüs Uillis baba oldu



**Afaziya diaqnozu qoyulduğu üçün karyerasını bitirən aktyor Brüs Uillis baba olub.**

**Bu barədə Brüsün böyük qızı, Rumer Uillis sosial media hesabında paylaşım edib. O, qızının olduğunu və adını Luetta Isli Tomas Uillis qoyduqlarını açıqlayıb.**

***Qeyd edək ki, Rumer aktyorun keçmiş həyat yoldaşı, aktrisa Demi Murdan olan qızıdır. Onun ümumilikdə beş qız övladı var.***

## Yeni iddialar ortaya çıxıb

**Kadirin həmin xanımla imam nikahı olub**



***Xəbər veridiyimiz kimi, ötən gün türkiyəli aktyor Kadir Doğulunun aktrisa həyat yoldaşı Neslihan Atagülə xəyanət etdiyi anın görüntüləri yayılıb.***

**Axşam.az xəbər verir ki, məsələ ilə bağlı yeni iddialar ortaya çıxıb. "2. sayfa" proramının məlumatına görə, Kadir videodakı adı "S" hərfi ilə başlayan xanımla uzun müddətdir münasibətdədir. Hətta aktyor onun üçün ayrıca ev alıb və kəbini var. Maraqlı məqamlardan biri isə Neslihanın da bundan xəbərdar olmasıdır. Verilişin digər bir iddiası isə elçilik marasimində aktrisanın da olmasıdır.**

***Qeyd edək ki, Kadir Doğulu ilə Neslihan Atagül 7 ildir evlidir.***

## Serengil xəyanəti bağışladı, barışdılar



**Xəbər verdiyimiz kimi, türkiyəli aparıcı Seren Serengil xəyanətə görə sevgilisi Mustafa Rahman Tohmadan ayrılıb.**

**Axşam.az xəbər verir ki, cütlüyün barışdığı iddia edilib. İkili ötən gün məkanların birində görüntülənib. Bundan başqa, Serengilin sevgilisinin xəyanəti ilə bağlı yazdığı paylaşımlar da hesabından silinib. İkili məsələ ilə bağlı açıqlama yaymayıb.**

***Qeyd edək ki, bir müddət əvvəl Serengil Mustafanın ona xəyanət etdiyinin şahidi olduğunu bildirimişdi.***



# Olmaz belə eşqdən

## Sevdiyi qadını məzardan çıxarıb, uzun müddət ölü ilə yaşadı

**ABŞ Dəniz Donanması Xəstəxanasında radioloq olaraq çalışmış Carl von Coselin əsl kimliyi illər sonra üzə çıxıb. Məlum olub ki, xəstəxana heyətinin Carl von Cosel kimi tanıdığı adam əslində 1877-ci ildə Almaniyada anadan olmuş, 1926-cı ildə ABŞ-yə köçərək Floridada yaşamağa başlayan, 1927-ci ildə isə başqa birisinin adı altında Dəniz Donanması Xəstəxanasında işə düzələn Carl Tanzlerdir.**

Lakin radioloq-həkim Carl Tanzler ismini dəyişdirməkdən daha çox, sevdiyi qadını məzardan çıxarıb ölü ilə uzun həyat yaşamasıyla məşhurlaşıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, vərəm diaqnozuyla xəstəxanaya yerləşdirilən Mariya Elena Milagro de Hoyosu görən andan həkim "bu, mənim yuxularıma gələn, gözlərimin önündən getməyən həmin qadındır", deyərək ona aşiq olub. Həkim bu qadını həqiqətənmi yuxularında görmüşdü? Mariya da keşməkeşli həyat yaşayıb. Kiçik bacısı vərəmə yoluxaraq vəfat edib. Mariya ailə qurub, lakin övladı olmadığından həyat yoldaşı onu tərk edib. Mariya bir müddət sonra vərəmə yoluxub və Dəniz Donanması Xəstəxanasında müalicə almağa başlayıb. Həkim-radioloq da Mariyanı burada görüb. Onunla tanışlığı isə Mariyanın həyatını tamam başqa istiqamətə yönəldib. Carl Tanzler Mariyanı görən kimi "bundan əvvəl mənimlə yuxularda danışan qadın budur! Saçları da eynilə bu cür idi", düşünərək Mariyaya aşiq olub. Ona bahalı geyimlər, cəvahiratlar hədiyyə etməyə başlayıb. Lakin Mariya həkimin məhəbbətinə cavab verməyib. Gənc qadın 1931-ci ildə həkimin bütün səylərinə baxmayaraq, 22 yaşında xəstəlikdən vəfat edib. Onun ölümü Carlı sarsıdır, qadının məzarı başından günlərlə ayrılmır, sevdiyi mahnıları hər gün məzar başında səsləndirir. Həkim deyirmiş ki, sevdiyi qadının ruhu ona görünür, məzardan ona səslənir, onu bu həbsxanadan - məzardan çıxarmasını xahiş edir. Bir müddət sonra isə inanılmaz hadisə baş verib. Carl qadının məzarını açaraq cəsədi oradan çıxarıb öz evinə aparıb. Burada həkim cəsədin sümüklərini iplərlə bir-birinə birləşdirib, gözlərinin yerinə şüşədən süni gözlər yerləşdirib. Cəsəd çürüməyə başladığında onu bal mumu və təmir işlərində istifadə olunan ağ alçı sürtülmüş bez parça ilə örtərək qorumağa çalışıb. Həkim cəsədlə sanki canlıdır kimi davranır, onunla danışır, geyindirir, boynuna qızıl boyunbağı taxır. Hətta Mariyanın anasından aldığı saçlardan parik də düzəldərək cəsədin baş hissəsinə keçirib. Cəsədin qoxusu ətrafa yayılmasın deyə bol miqdarda dezodorant və ətirdən istifadə edib. Bütün qəsəbə həkimin tez-tez qadın geyimləri aldığını, gəlinciyə oxşar bir əşya ilə rəqs etdiyindən danışırmış. Qəsəbə sakinlərin-



də həkimin cəsədi məzardan çıxardığına dair şübhələr də olub. Lakin kimsə bunu dilə gətirməyib. Bu xəstə təxəyyül 9 il davam edib. Mariyanın həyatda qalan digər bacısı Florinda şayiələri eşidib və həkimin mənzilinə gəlib. Həkimin yatağında bacısının cəsədini görüb. Həkim cəsədə qarşı hörmətsizlik əməlinə görə məsuliyyətə cəlb edilib. Mariyanın cəsədi isə patoloji müayinədən sonra Key Vest Lopez mərasim evinə gətirilib, sonra da məzarlıqda dəfn edilib. Həkim isə xəstə sevgisindən xilas ola bilməyib və ömrünün son illərini Mariyanın üz cizgilərini xatırladan maska taxılmış heykəllə keçirib, nəhayət, 75 yaşında vəfat edib.

**Məlahət Rzayeva**



# Sati ənənəsi!

## Dul qadınlar ölən həyat yoldaşları ilə birlikdə yandırılırdı



**Hindistanda dul qadınların vəfat etmiş həyat yoldaşlarıyla birlikdə yandırılması adəti 1829-cu ildə qadağan edilib. O zamanlar Böyük Britaniya tabeliyində olan Hindistanın ilk valisi Lord Villiam Bentink bu qadağanı təsdiq edib. Dul qadınların həyat yoldaşları ilə birlikdə yandırılması "sati" adlanırdı və Hindistanda adət idi.**

Lord Villiam Bentink isə 49 zabit və 5 istintaqçının fikirlərini öyrəndikdən sonra "ingilis hakimiyyəti üzərindəki bu qara ləkəni təmizləmək" qərarına gəlib. Bunun üçün yeni qanun layihəsi hazırlanmasına göstəriş verib. Qanun layihəsində sati insan təbiətinə zidd, qanundan kənar və yaramaz bir adət adlandırılıb. Məhkəmələrə bu adəti yerinə yetirənləri cəzalandırmaq hüququ verilib. Lordun təsdiqlədiyi yeni qanun layihəsi sati adətinə qarşı ən sərt tədbirlər sayılır. Qanun qüvvəyə mindikdən sonra Raja Rammohun Royun rəhbərliyi altında ölkənin tanınan şəxsləri, təqribən 300 hindli onları qadın qatili olmaqdan xilas etdiyi üçün Lord Bentinkə təşəkkür edib. Qatı dindar hindlilər isə Lord Bentinkə təpki göstərərək satinin ləğvinə qarşı çıxıblar. Etirazlar İngiltərə müstəmləkələrində ən uca ədalət məhkəməsi sayılan Privi Konseyinə daşınıb. Lakin Konsey 1832-ci ildə satini "topluma qarşı aşkar bir cinayət" elan edərək qanun layihəsini dəstəkləyib. Amma Lord Bentink qanunu 1837-ci ildə bir başqa ingilis məmuru, Hindistan Cəza Qanununun yazarı Thomas Macaulay tərəfindən ləğv edilib. Onun fikrincə, dul qadınların şəxsi istəyi ilə tonqalı alovlandıranlar sərbəst buraxılmalıdır. Macaulay bunu onunla izah edirdi ki, dul qadınlar dini vəzifənin yerinə yetirilməsini güclü dini bağlılıq hissi altında icra edilməsini istəyir və bunu özləri üçün şərəf bilirlər. Mittaya görə, Macaulayın sati ilə bağlı düşüncələri illər sonra Britaniya idarəçilərinə əsaslı görünüb. Müxtəlif zamanlarda sati adətinə qarşı yeni qanunlar, qaydalar tətbiq edilib, bu əmələ görə cəzalar gah sərtləşdirilib, gah yumşaldılıb. Sati adətinin son dəfə 1947-ci ildə həyata keçirildiyi və 41-ci qadının yandırılmasından sonra eyni halın təkrar yaşandığına dair məlumatlar yoxdur.

**Məlahət**

## Tezliklə xərçəngin müalicəsi tapılacaq

**"Nostradamus" süni intellekti 7 hadisə barədə proqnoz verib**

**İngiltərənin "Daily Star" nəşri dünyaca məşhur öngörücü Nostradamusun verdiyi proqnozları süni intellektlə təkmilləşdirib.**

Oxu.az xəbər verir ki, son zamanlar ən populyar tətbiqlərdən olan süni intellekt platforması ChatGPT və məşhur öngörücü Nostradamusun məlumatları birləşdirilib.

Nəticədə "Nostradamus" süni intellekti bu məlumatlar əsasında gələcəkdə 2099-cu ilə qədər baş verəcək 7 hadisə barədə proqnoz verib.



"Nostradamus" süni intellektinin verdiyi məlumatlara görə, tezliklə xərçəngin müalicəsi tapılacaq. Nostradamus kimi qədim üslubda yazılmış bu proqnozda xərçəngin xəstəliyinin 2031-ci ildə müalicə oluna biləcəyi qeyd edilib. "Dünya 2031-ci ildə daha əvvəl heç şahid olmadığı bir şey görəcək. Xərçəngin müalicəsi tapılacaq. Bu, tibbi inqilab olacaq", - deyə süni intellekt bildirib.

"Nostradamus" süni intellekti 2050-ci ildə kəskin iqlim dəyişikliklərinin baş verəcəyini və bunun insanların həyatına mənfi təsir göstərəcəyini deyib.

ChatGPT 2060-cı ildə süni intellektin təkamül edəcəyini, robotların və maşınların özlərini daha da təkmilləşdirəcəyini bildirib. "Süni intellekt inkişaf edəcək və bir inqilab yaşanacaq. Robotlar və maşınlar daha ağıllı olacaq və bütün dünyada sənaye sahəsini yenidən formalaşdıracaq. İş yerləri itiriləcək və insanlar buna uyğunlaşmalı olacaq", - deyə o əlavə edib.

Süni intellekt iddia edib ki, 2074-cü ildə Marsa getmək yeni hədəfə çevriləcək və bu dövrdə orada məskunlaşma başlayacaq. "İnsanlar bu naməlum torpaqlarda çətinliklərlə qarşılaşacaqlar. Lakin uyğunlaşacaqlar", - deyə o qeyd edib.

Süni intellektin proqnozlarına görə, 2084-cü ildə kiborqlar real olacaq, insan və robotların qarışığı olan sistemlər elmi fantastika filmlərindən çıxaraq həyatın bir parçası olacaq.

ChatGPT 2085-ci ildə yeni epidemiyanın yayılacağını da iddia edib. O bildirib ki, həlelik bu xəstəliyin nə olduğunun bilinməsə də, bu xəstəlik səbəbilə dünyadakı bütün xalqlar əməkdaşlıq etməyə başlayacaq.

"Nostradamus" süni intellektinin verdiyi proqnozlara görə, 2099-cu il dünyada sülh ili olacaq.

O vurğulayıb ki, 21-ci əsrin sonunda Yer kürəsində sülh bərqərar olacaq. "Müharibə və zorakılıqla parçalanmış Yer kürəsində harmoniya yaranacaq və yeni bir həyat başlayacaq. Sərhədlər silinəcək, ayrılıqlar sona çatacaq", - deyə o şərh verib.